Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev

Gündəlik hüquq qəzeti

Qəzet 1990-cı ilin iyulundan çıxır

№ 149 (5809) 7 noyabr 2020-ci il

Qiyməti 30 qəpik

## «Digər rayonların azad edilməsinin aktiv mərhələsindəyik»



Bax:səh-2

## TÜRKLƏR VƏ TALIŞLAR



**ATATÜRK DEYİR:** "Türk qurtaran yerdə kürd başlayır! Kürd qurtaran yerdə türk başlayır!"

**ALPARSLAN TÜRKEŞ DEYİR:** "Türk hara qədər türkdürsə, kürd də ora qədər türkdür! Kürd hara qədər kürddürsə, türk də ora qədər kürddür!"

**AQİL ABBAS DA BUNU BELƏ DEYİR:** "Türk qurtaran yerdə, talış başlayır! Talış qurtaran yerdə türk başlayır!"

**VƏ DAHA SONRA:** " Türk hara qədər türkdürsə, talış da ora qədər türkdür! Talış hara qədər talışdırsa türk də ora qədər talışdır!"

## "Hərbçi və polis ictimai nəqliyyatdan pulsuz istifadə etməlidir"



**"Polisin, xüsusilə hərbçilərin ictimai nəqliyyatdan pulsuz istifadəsi təmin olunmalıdır".**

Bunu Milli Məclisin iclasında "Hərbi qulluqçuların statusu haqqında" qanun layihəsinin müzakirəsi zamanı deputat Aqil Abbas deyib. O bildirib ki, qardaş Türkiyədə hərbçi pensiyaya çıxandan, yaxud işindən ayrılandan sonra xəstəxanadan pulsuz istifadə edir: "Bizdə də belə olmalıdır. Hələ ki, bizdə icbari tibbi sığorta tətbiq edilmir. Daxili İşlər Nazirliyində bu məsələ öz həllini tapıb. İşindən ayrılan işçilər də Daxili İşlər Nazirliyinin hospitalından istifadə edə bilir. Hərbçilər üçün də belə olmalıdır".

## BNA: Bayraq Günü Bakıda bütün marşrutlar fəaliyyət göstərəcək

**Nazirlər Kabineti yanında Operativ Qərargahın müvafiq qərarına əsasən noyabrın 7-si gecə saat 00:00-dan noyabrın 9-u səhər saat 06:00-dək müntəzəm və ekspres xətlər üzrə avtobusların fəaliyyəti dayandırılacaq.**

**Bu barədə Bakı Nəqliyyat Agentliyindən məlumat verilib. Məlumatda bildirilir ki, 9 noyabr (bazar ertəsi) Dövlət Bayrağı günü qeyri-iş günü olmasına baxmayaraq müntəzəm və ekspres xətlər üzrə avtobuslar sərnişinlərimizin xidmətində olacaq.**

## Cəbhənin Qubadlı istiqamətində düşmən mövqeləri ataraq qaçıb



*Cəbhənin Qubadlı-Laçın istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun atəş zərbələrinə tab gətirə bilməyən düşmən mövqeləri ataraq qaçıb. Müdafiə Nazirliyindən Adalet.az-a verilən məlumata görə, məlum olub ki, Ermənistandan gətirilərək müdafiə zolağına yerləşdirilən 556-cı və 522-ci motoatıcı alayların bölmələri onlara tapşırılan hədlərə çıxmayıb.*

*Eyni zamanda şəxsi heyət hazırlıqsız, təcrübəsiz və intizamsız olmaqla yanaşı, verilən əmr və tapşırıqlara da səhlənkar yanaşıb.*

## Əbülfət MƏDƏTOĞLU
*Əməkdar jurnalist*

## ATƏŞKƏSİ HANSI TƏRƏF POZUR?!

Bax: səh.2

## Türkiyənin yeni möhtəşəm silahı - ULAQ



**Türkiyə Silahlı Qüvvələri havada və quruda olduğu kimi, dənizdə də gücünü artırır.**

Qardaş ölkə ilk silahlı pilotsuz döyüş gəmisi - ULAQ-ın istehsalını yekunlaşdırır.

Bildirilir ki, ULAQ seriyasının ilk məhsulu olan SİDA-nın prototip istehsalı dekabr ayında başa çatacaq. SİDA 400 kilometr seyretmə məsafəsi, saatda 65 kilometr sürət, gündüz/gecə görmə qabiliyyəti, milli şifrəli rabitə infrastrukturuna malik olacaq. Döyüş gəmisi müxtəlif əməliyyatlara cavab verəcək formada raket sistemləri ilə təchiz olunacaq. Bununla yanaşı, gəmidən müşahidə və səth müharibəsi, assimetrik döyüş, silahlı müşayiət və strateji təsisat təhlükəsizliyi istiqamətində də istifadə olunacaq.

## İqtisadiyyat nazirliyi bu ərazilərdə yaşayanlara yardımlar edəcək

**Şəki, Lənkəran şəhərlərinin, Qax, Zaqatala, Biləsuvar, Cəlilabad, Masallı, İsmayıllı, Quba, Xaçmaz rayonlarının inzibati ərazisində xüsusi karantin rejimində dəyişikliklər edilib.**

**Adalet.az-ın məlumatına görə, qərara əsasən, İqtisadiyyat nazirliyi tərəfindən bu şəhər və rayonlarda muzdlu işçilərin əmək haqqları üzrə müvafiq ödənişlər ediləcək və fərdi (mikro) sahibkarlara birdəfəlik maliyyə dəstəyi göstəriləcək.**

**Nazirlər Kabineti yanında Operativ Qərargah yuxarıda sadalanan şəhər və rayonların sakinlərinə ciddi şəkildə evdə qalmağı tövsiyyə edir, karantin rejiminin qaydalarına əməl etməyə çağırır.**

## Düşmənin Ağdərədə yerləşən alaylarını silah-sursatla təmin edən anbar partladı



**Xankəndi yaxınlığında yerləşən silah-sursat anbarından yük avtomobillərinə yüklənən döyüş sursatlarının partlaması güclü yanğına səbəb olub.**

Bu barədə Azərbaycanın Müdafiə Nazirliyi məlumat yayıb. Bildirilib ki, alov tez bir zamanda anbara keçib və nəticədə güclü partlayış baş verib. Sursat anbarı Ağdərədə yerləşən düşmənin 10-cu dağatıcı diviziyası və 5-ci dağatıcı alayının artilleriya və digər bölmələrini silah və döyüş sursatları ilə təmin edirdi.

## «Digər rayonların azad edilməsinin aktiv mərhələsindəyik»



**Cəbhədəki vəziyyət Azərbaycan Ordusunun üstünlüyünü göstərir. Biz bir-birinin ardınca kəndləri, şəhərləri azad edirik.**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də İspaniyanın EFE informasiya agentliyinə müsahibəsində deyib.

”Döyüş meydanındakı bu müddət ərzində Azərbaycan, demək olar ki, 30 il işğal altında olan ərazisinin böyük hissəsini azad edib. Azərbaycan Ordusunun uğurlu hücum əməliyyatı davam edir. Bu, bir daha onu göstərir ki, biz güclü ölkəyik və öz torpağımızda döyüşürük. Biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisini, Azərbaycanın ərazi bütövlüyünü bərpa edirik. Yeri gəlmişkən, biz BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının bizim ərazilərimizdən çıxarılmasını tələb edən, lakin Ermənistan tərəfindən demək olar ki, 30 il ərzində əməl olunmayan qətnamələrini icra edirik”, - deyə Prezident əlavə edib.

Jurnalistin ”Siz işğal olunmuş 7 rayonun - 5 üstəgəl 2 azad edilməsini istəyirsiniz. Siz onlardan artıq neçəsini azad etmisiniz” sualına cavabında Dövlət başçısı deyib:

”Faktiki olaraq, işğal olunmuş rayonlardan 5-dən 4-ü artıq ya tamamilə, ya da qismən azad edilib. Bu gün biz işğal altında olan digər rayonların işğaldan azad edilməsinin aktiv mərhələsindəyik. Qeyd etdiyim kimi, biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edirik və yeri gəlmişkən, biz artıq əsas prinsiplərin bir hissəsini yerinə yetirmişik. Çünki ATƏT-in Minsk qrupu tərəfindən təklif olunan həll üçün əsas prinsiplər faktiki olaraq Azərbaycanın işğal olunmuş ərazilərinin boşaldılmasını tələb edirdi. Əfsuslar olsun ki, Ermənistan könüllü şəkildə bunu etmək istəmirdi, ona görə də biz onları bunu etməyə məcbur etməli olduq”.

## «Paşinyanla bir masa arxasında oturmağın mənası yoxdur»

**Biz hərbi əməliyyatları davam etdirmək istəmirik və mən dəfələrlə demişəm və bu gün də təkrar edə bilərəm, əgər Ermənistanın baş naziri şəxsən özü, bu qan tökülməsinə görə məsuliyyət daşıyan şəxs belə bir bəyanat versə, biz dərhal dayanmağa hazırıq, dərhal. Mən sözünə əməl edən insanam və biz bunu edərik. Lakin o, bunu demir.**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də İspaniyanın EFE informasiya agentliyinə müsahibəsində deyib.

”O, vaxt qazanmaq istəyir, daha çox hərbi yardım əldə etmək üçün atəşkəs istəyir, Azərbaycana qarşı yeni hücumlar etmək və bizim azad etdiyimiz əraziləri geri almaq üçün bu atəşkəsdən istifadə etmək istəyir. Onun niyyəti bundan ibarətdir”, - deyə Prezident əlavə edib..

Jurnalistin ”Siz hazırda cənab Paşinyanla bir masa arxasında oturmağa hazırsınız, yoxsa bunun bir mənası yoxdur” sualına cavabında Dövlət başçısı deyib:

”Xeyr, bunun qətiyyən heç bir mənası yoxdur. Son iki il ərzində mənim onunla çoxsaylı görüşlərim olub, lakin onların hamısı tamamilə səmərəsiz və mənasız olub, ilk görüşlər istisna olmaqla. O, mənə söz vermişdi ki, əgər Azərbaycan dırnaqarası ”inqilab”dan sonra ona vaxt versə, o, yaxşı hazırlaşacaq, Ermənistanda siyasi cəhətdən öz mövqeyini gücləndirəcək və sonra əsas prinsipləri yerinə yetirmək üçün konstruktiv şəkildə işləməyə hazır olacaq. Bu, onun Ermənistanda rəhbərliyinin ilk aylarında mənə söylədikləri idi. Lakin bir ildən sonra o, tamamilə fərqli sözlər dedi. O dedi ki, Azərbaycana qaytarılası bir santimetr belə torpaq yoxdur. Dedi ki, ”Qarabağ Ermənistandır”. Dedi ki, Azərbaycan Dağlıq Qarabağdakı qondarma qurumun dırnaqarası ”rəhbərliyi” ilə danışıqlar aparmalıdır. Beləliklə, o, danışıqlar prosesini pozmaq üçün hər şeyi etdi. Ona görə də hazırda mən onunla görüşməkdə bir məna görmürəm. Bu yaxınlarda bizim xarici işlər nazirlərimiz Cenevrədə görüşüblər və mən düşünürəm ki, hazırda bu, təmaslar üçün doğru formatdır”.

# ATƏŞKƏSİ HANSI TƏRƏF POZUR?!

## Görməyənlər və yaxud görmək istəməyənlərin erməni sevdası

**Dağlıq Qarabağ və ona bitişik 7 rayonun işğalı ilə leksikonumuza atəşkəs sözü daxil oldu. Zaman-zaman bu söz adamlarda qıcıq yaratmağa başladı. Çünki torpaqlarımızı işğal edənin təxribatları, diversiya qruplarının cəbhəyanı ərazilərə müdaxiləsi, xüsusilə erməni snayperlərinin Azərbaycan əsgərini tez-tez nişangaha çevirməsi atəşkəs sözündə heç bir güc olmadığına bizi inandırdı. Faktiki olaraq düşmən bu sözü özü üçün bir vasitəyə, bir mövzuya çevirdi. Xüsusilə ATƏT-in Minsk qrupu və onun monitorinq keçirən səlahiyyət sahibləri.**



Bəlli odluğu kimi, bu ilin sentyabr ayının 20-də Azərbaycan Ordusu düşmənin təxribatının qarşısını alaraq əks hücuma keçdi. Bununla da Böyük Vətən Müharibəmiz başladı. Ordumuzun rəşadət qısa müddətdə ərazilərimizin xeyli hissəsini işğalçılardan azad etməyə başlaması Ermənistanı və onun havadarlarını qorxuya saldı. Sanki nə baş verdiyini anlamaq iqtidarında olmayan Ermənistan bu şokdan çıxmaq üçün yadına atəşkəsi saldı. Və dərhal da Ermənistanın baş naziri dünya liderlərini, xüsusilə Minsk qrupunun həmsədrlərinin qapısını döyməyə, dabanlarını yalamağa başladı. Onun bitib-tükənməyən zənglərindən sonra oktyabr ayının 10-da ilk humanitar atəşkəs imzalandı. Amma...

İmzalanmış bu ilk humanitar atəşkəsin ömrü çox qısa oldu. Düşmən yaşayış məntəqələrimizi raketlərdən və iri çaplı silahlardan atəşə tutmağa başladı. Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədə vətəndaşların gecə vaxtı yuxuda olduqları anda düşmən tərəfindən hücuma məruz qalması, yaşayış evlərinin dağılması... insanlığa sığmayan bu faşist əməli bizi məcbur etdi ki, düşmənin atəş nöqtələrini susduraq.

Azərbaycan Prezidentinin Almaniyanın ARD telekanalına verdiyi müsahibəsində də dediyi kimi, ***”Atəşi ilk açan Ermənistandır. Mülki şəxslər və hərbiçilər arasında ilk qurbanlar azərbaycanlılar idi. Ermənistan üç dəfə atəşkəsi kobud şəkildə pozmuşdur. Azərbaycanın üç dəfə atəşkəsə razı olması faktı hərbi toqquşmaları dayandırmaq və bu məsələni danışıqlar masasında siyasi yolla həll etmək iradəsini nümayiş etdirmişdir”.***

Ali Baş Komandanın söylədiyi kimi, düşmən atəşkəs pərdəsi arxasında bir növü zaman qazanmaq, yenidən silah-sursat toplamaq, muzdlu döyüşçüləri səfərbər edib döyüş bölgəsinə gətirmək üçün canfəşanlıq edir. Onlar əsl həqiqətdə bu atəşkəsin problemin həllinə yox, onun dondurulmasına xidmət etdiyini gizlətmək istəyirlər. Düşünürlər ki, qazandıqları zaman hesabına onlar yenidən Azərbaycanın geri qaytardığı ərazilərə hücumlar təşkil edəcəklər. Lakin bu artıq bir daha baş verməyəcəkdi. Çünki dünyanın 3 böyük şəhərlərində imzalanan humanitar atəşkəslərin hər üçü məhz Ermənistan tərəfindən pozulmuşdur. Gəncəyə, sonra Bərdə şəhərinə, eləcə də digər ərazilərimizə atılan raketlər, mülki əhaliyə qarşı istifadəsi qadağan olunmuş fosforlu bombalar və digər silahlar təkcə Azərbaycan mediasında deyil, dünya mediasında da artıq tirajlanıbdı. Xüsusilə qardaş Türkiyənin, Pakistanın, eləcə də Amerikanın, Yaponiyanın, Rusiyanın və digər ölkələrin televiziyaları, qəzetləri erməni vandalizmini hər kəsə çatdırıbdı. Bu vandalizmin qurbanı olan uşaqların, qadınların, qocaların şəkilləri indi hər kəsin gözləri önündədir. Düşmənin atdığı mərmilərlə yerlə yeksan olan çoxmərtəbəli yaşayış evlərinin qalıqları altından çıxarılan həmin qurbanlar normal insanın qanını dondurur, onların acısına dözmək olmur. Düşmən isə atəşkəs adı altında öz faşist xislətini davam etdirir. Baxmayaraq ki, ***”Azərbaycan həmişə sülh planına sadiq olub, üzərinə götürdüyü öhdəliyi yerinə yetirib, dildə sülh istəyən ermənilər isə danışıqlar masasında həmişə problemin sülh yolu ilə həllinə qarşı çıxıblar.***

***Və Ermənistanın danışıqlar masasında bütün istəyi vasitəçiləri və Azərbaycanı aldatmaqdan ibarət olub. Onlar həmişə özlərinin bu xislətlərini nümayiş etdiriblər. Bu gün azad edilmiş torpaqlarımızda qurulmuş istehkamlar da bir daha göstərir ki, ermənilər heç vaxt bu ərazilərdən çıxmağı planlaşdırmayıblar”.***

Bu fikirlər Ali Baş Komandanımıza aiddir. Almaniya mediasının təmsilçisinin suallarını cavablandırarkən cənab prezident faktı bütün çılpaqlığı ilə sərgiləmişdi. O, vurğulamışdı ki, ***”Atəşkəsi Azərbaycan yox, Ermənistan pozur. Bunu hər kəs dəqiq bilir. Və bizim əlimizdə kifayət qədər sübutlar var. Eyni zamanda, işğal olunmuş ərazilərdən, eləcə də Ermənistandakı dədə-baba torpaqlarımızdan ermənilər deyil, azərbaycanlılar etnik təmizlənməyə məruz qalıblar. Biz torpaqlarımızı işğaldan azad etdikdən sonra bir milyon köçkünümüz öz yurd-yuvasına qayıdacaqdır”.***

Almaniyanın ARD televiziya kanalı təmsilçisinin suallarında müəyyən həqiqətləri görməmək və ya qəsdən bu həqiqətlərdən xəbərsiz olmaq görüntüsünü yaratmaq təkcə müsahibəni izləyənlərin deyil, eləcə də ölkə prezidentinin diqqətindən yayınmamışdı. O, sərrast və birmənalı şəkildə müxbirin bu yanlışlıqlarını yerindəcə aydınlaşdırmış və özünün böyük düşüncə qabiliyyətilə, bilgilərilə, kifayət qədər mükəmməl faktlara malik olmağıyla media nümayəndəsini açıq şəkildə susdurmuşdu. Cənab prezident vurğulamışdı ki, ***”Azərbaycan Ordusunun arsenalında silah-sursat kifayət qədərdi. Biz torpaqlarımızı işğaldan azad edirik. Ermənilərə qarşı etnik təmizləmə aparmamışıq, heç bunu indi də etməyi planlaşdırmırıq. Müharibəyə də arsenalımızda olan İsrail dronlarına arxayın olub başlamamışıq. Bu dronlar əvvəldən də var idi. Sadəcə, bu dəfə təxribatın miqyası çox böyük idi. Və Ermənistan bu gün də hücumu dayandırmadığından biz onlara döyüş meydanında layiq olduğu cavabı veririk”.***

Bəli, Azərbaycan Ordusu özünün Ali Baş Komandanının başçılığı altında bu gün döyüş meydanında Ermənistana və onun havadarlarına öz gücünü göstərir. Onlara hərb elmindən dərs keçir. Düşmən hardan, kimlərdən dəstək alır alsın, bu ordu və onun komandanı dövlət sərhədlərimizi mütləq bərpa edəcək. Bayrağımız bütün ərazilərimizdə dalğalanacaqdır.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

**Əbülfət MƏDƏTOĞLU**
**«Ədalət» qəzetinin baş redaktorunun birinci müavini, Əməkdar jurnalist**

# Spiker: "Azərbaycan Ordusunun zəfər yürüşünün başa çatacağı gün uzaqda deyil"

**”Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Qarabağ savaşı həlledici mərhələyə daxil olub”. Bunu Milli Məclisin dünən keçirilən növbəti plenar iclasında parlamentin sədri Sahibə Qafarova deyib. O bildirib ki, bu gün işğaldan azad edilmiş bir çox kənd, qəsəbə, şəhərdə Azərbaycan bayrağı dalğalanır: ”Son 17 ildə həyata keçirilən ordu quruculuğu hərb meydanında özünü göstərir. Düşmənin keçilməz hesab edilən müdafiə xətti yarılıb. İşğalçı qüvvələrə ağır zərbələr endirilir”.**



”Erməni şovinistləri öz havadarları ilə birlikdə bir əsrdən çoxdur ki, xalqımıza qarşı apardığı informasiya müharibəsində də sarsıdıcı zərbələr alır”-deyən spiker bildirib ki, Azərbaycanın haqq işi uğrunda mübarizə apardığını söyləyən möhtərəm prezidentimiz hər kəsə nümunə göstərir: ”Prezident İlham Əliyevin xarici mediaya verdiyi müsahibələr informasiya savaşında ermənilərə ən böyük zərbədir. Mən əminəm ki, Azərbaycan Ordusunun zəfər yürüşünün başa çatacağı gün uzaqda deyil. Tezliklə Azərbaycan bayrağı Qarabağın incisi olan Şuşada, Laçında, Xankəndidə dalğalanacaq.

Prezidentin də dediyi kimi biz haqq mübarizəsindəyik və zəfər çalacağıq. Qarabağ Azərbaycandır!”

**Nicat Novruzoğlu**

# Qanı ilə şərəf tariximizi yazan atanın son sözləri: "Məni vursalar, özünü itirmə!"

**Əynində hərbi geyim, sağında və solunda iki oğlu olan qürurlu ata fotosu, yəqin ki, hamının yadındadır.**



Müşfiq Abbasov Vətən Müharibəsinin hələ ilk günlərində iki övladı Şamil və İntiqamla cəbhəyə yollanıb.

Müşfiq Abbasov hələ Birinci Qarabağ Müharibəsində, gənc yaşlarında qardaşları ilə birlikdə ermənilərə qan uddurub.

Vətənin qürur tarixinin yazıldığı bu günlərdə isə oğulları ilə birlikdə düşmənin canına qorxu salıb.Şamil Abbasovun sözlərinə görə, kiçik yaşlarından silahla oynayıb:

”Mənə güllə atmağı atam öyrətdi. Atam sanki illərdir bizə təlim keçirdi. Və məqamı gəldi, götürüb apardı”.

Ş.Abbasov bildirib ki, atası bu günləri illərlə gözləyib:

**”Vətəni, torpağı sevməyi, ona bağlı olmağı bizə atam öyrədib. Atam Ağdam rayonunun Abdal-Gülablı kəndində doğulub. Biz o kəndi görməsək də, atam oranı bizə çox sevdirib. Müharibə başlayandan sonra atam, biz və əmim könüllü cəbhəyə yollandıq. Son sözləri belə oldu: ”Məni vursalar, özünü itirmə!”**

# ABŞ PREZİDENTİNİ ALİ MƏHKƏMƏ SEÇƏCƏK?

## Tramp: «Demokratlar səsləri oğurlayır»

**ABŞ-da keçirilən prezident seçkilərində qalmaqallar böyüyür. Prezidentliyə namizəd Donald Trampın vəkili Rudolf Culyani demokratların səsəri kütləvi şəkildə ”oğulamağa” cəhdləri iddiası ilə Pensilvaniyaya getiyini bəyan edib: ”Mən hüquqşünaslar komandam ilə birlikdə Filadelfiyaya gedirəm. 75 faiz hesablanması zamanı Trampın 550 min səsini politikan-demokratların oğrlamasına imkan verə bilmərik”- deyə o, Twitter səhifəsində yazıb.**

Hazırki respublikaçı prezident Donald Tramp demokrat rəqiblərini bir çox ştatlarda səsləri manipulyasiya eməkdə günahlandırıb. Dövlət başçısı bəyan edib ki, onun qalib gəlməməsi üçün ”bülletenlər kütləvi şəkildə” əlavə olunur. Tramp seçkilərdən sonra poçtla daxil olan bülletenlərin qəbul edilməsinin qanunsuz olduğunu bildirərək,bununla bağlı Ali məhkəməyə müraciət edəcəyi barədə xəbərdarlıq edib.

Digər namizəd Co Baydendə öz növbəsində seçici səslərinin dəqiq hesablanmasınına nəzarət etmək üçün, ”seçkilərin müdafiə fondu” yaradacağını bəyan edib. ” Ona görə ki, seçkilərin nəticələrini Donald Tramp deyil, amerikan xalqı müəyyən etməlidir”- deyə o, qeyd edib.



Vəziyyətin bu cürə inkişaf edəcəyi, tərəflərin bir-birilərini məhkəmə çəkişməsinə sürməsi, qalibin elan edilməsini hələ bir neçə həftəyə qədər uzada bilər. Hələki proqnozlara görə Bayden 50.1 faiz səslə irəlidədi, Tramp isə 48.3 faiz səs toplayıb. Lakin NBC teleşirkəti bildirir ki, 20 milyondan çox bülleten sayılmamış qalıb.

Dünyanın demokratiya beşiyi sayılan Amerika Birləşmiş Ştatlarında demokratlarla respulikaçılar seçkilərin saxtalaşdırılmasını bəyan edirlər. Hazırki prezident Donald Tramp Ağ Evdə qalmaq istəyir. Ona görə də sonadək mübarizə aparmaq niyyətindədi. Artıq etiraz mitinqləri başlayıb. Ola biləcək təxribatların qarşısının alınması məqsədi ilə Ağ Evin qarşısına 2.5 metrlik sədd çəkilib. Bir çox mağaza və restoranlar bağlanıb. İri şəhərlərdə gözlənilən iğtişaşlara görə vitrinlər taxta və fanerlərlə bağlanılır. Amerikan polisinin gecə yürüşəri zamanı bir neçə nümayişçini saxladığı bildirilir.

**Bu gedişlə deyəsən ”demokratik” seçkilərin nəticəsini yenə də Ali Məhkəmə müəyyənləşdirəcək. Lakin bu vətəndaş qarşıdurmasının, vətəndaş müharibəsinə çevrilməsinin qarşısını ala biləcəkmi?**

**Rüstəm HACIYEV**

*Vüsalə Məmmədova*

# Millətin alnındakı ləkəni qanı ilə silən əsgərə sevgilərlə...



*4 gündür düşünürəm ki, görən bu barədə yazsam acığınız tutmaz ki... Qınamayın, 6 il ərzində eyni sözü o qədər təkrarlamısınız ki, artıq ciddi travmam var. Xətrinizə dəyməmək üçün min bir əziyyətlə araşdırıb yazdığım yazının son bölümlərini paylaşmamışam…*

*Facebook həm də "Gündəlik" rolunu oynadığı üçün yazmaq qərarına gəldim. Hər il xatırlayım deyə…*

*Bu günlərdə Lent.az ilə birlikdə 6 illik gəldiyimiz yolu tamamladıq. "Əsir düşərgəsi"ni başa çatdırdıq. Düzdür, mənim arzum işğal edilən 13 şəhərin hər birinin əsirlik taleyini onun insanının simasında yazmaq idi. Sual yaranır: "Nə fərqi var, əsir elə əsirdir!"*

*Çox fərqi var! Onlar eyni əsir düşərgələrində saxlanıla bilərlər. Ancaq hekayələri mütləq fərqlənir! Qaradağlı əsirləri, Xocalı əsirləri, Kəlbəcər əsirləri, Laçın… Ağdam… Qəhrəmanlarım hərəsi öz şəhərinin taleyini danışırdı… Dürdanə ilə əsir Xocalını tanıyırdımsa, Xəqani isə əsir Ağdamı dolaşırdım…*

*Dərhal Şuşanın taleyini düşündünüz, hə?*

*Yox, Şuşanı yazmağa imkan vermədilər… Görünür Şuşanın işğal xəcalətini həzm edib qurtara bilməmişdilər…*

*Buna görə də 6 ildə 13 hekayəni başa çatdıra bilmədim. Zamanla heç kim bu barədə danışmaq istəmirdi... Susmaqla unudulacağını zənn edirdilər, ya "nəyə lazım" düşünürdülər... İşğaldan söz düşən kimi yetkililər məhv edilən tarixi abidələrdən söz açır, neçə məktəbin dağıdıldığını və s. deyirdilər... Rəqəmlər... rəqəmlər... statistika...! Bəs insan taleyi?*

*Müharibələrin nə qədər gərəksiz olduğunu rəqəmlər deyil, həyatlar sübut edir. Əsir hekayələri də onlardan biridir. Mən hətta Xocalıda əli körpəmizin qanına bulaşan terrorçunun taleyini araşdıranda da ağrıdım, müharibədən diksindim. Heyrətləndim! Dünyanın ən yaxşı universitetlərində təhsil alan, bir neçə dil bilən insan niyə öz həyatını yarımçıq qoyub Ermənistana gəlsin, savaşa qatılsın, qatilə çevrilsin? Niyə? Bəlkə bu suallara cavab tapsam o terrorçu da hekayəmin müsbət qəhrəmanına çevrilə bilərdi. Ancaq cavab tapmadım. Çünki müharibədə və ona səbəb olan insanlarda müsbət nəsə tapmağı bacarmıram… Bütün ömrünü sülh arzusu ilə yaşayan biri olduğum üçün bacarmıram…*

*…Qismət məni yenə girov hekayəsi ilə rastlaşdırsa, icazəsini ala bilsəm, onu mütləq tarixin rəfi üçün ayıracağam. İcazə verməsələr, məndə qalsın... Digər dinləyib yazmadığım hekayələr kimi... Ancaq hələ ki, bu qədər…*

*Sonuncu hekayə ağlıma gəlməyəcək qədər uğurlu sonlandı...*

*Düzdür, qəhrəmanıma öz hekayəsini oxumaq qismət olmadı. Ancaq təcrübəmdə bir neçə ilk yaşandı:*

*Səsi dinləyib işləyəndə müsahib həyatda yox idi, çox çətinliklərlə qarşılaşdım…*

*Pyer Reyçel ilk dəfə əsirlər barədə danışmağa razılaşdı…*

*Və... uğurlu sonluq - hekayənin son bölümü yayımlananda artıq qəhrəmanımın yurdu Zəngilanın Mincivan qəsəbəsi işğaldan azad edilmişdi!*

*"Əsir düşərgəsi"nin daimi oxucuları üçün yazını şərh bölümünə atıram. Bu arada, sonda sizə yazdığım "məktub"da təşəkkür borcumu da unutmamışam ?? Bu hekayələri birlikdə yazdıq. Qalibi sevmək cəsarət istəmir, məğlubu oxumaq, qurbanı duymaq isə insandan böyük ürək sahibi olmağı tələb edir. Bu böyüklüyün üçün çox sağ ol, əziz oxucu! Bütün bu zamanı yanımızda olduğun üçün sənə minnətdarıq!*

*Abbas Şahməmmədovun timsalında dünyadan yurd həsrəti ilə köçən bütün insanlarımızın ruhuna sonsuz sayğı və ehtiramla...*

*Millətin alnındakı ləkəni qanı ilə silən əsgərə sevgilərlə...*

*"Əsir düşərgəsi"nin Dilqəm və Şahbazın hekayəsi ilə qayıtması ümidi ilə...*

№ 125 (2159) 7 noyabr 2020-ci il

Azərbaycan Respublikasının
Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin
İnkisafına
Dövlət Dəstəyi Fondu

# Ermənilərin törətdikləri terror aktları və təxribatlar

(əvvəli ötən sayımızda)

**18) 29.07.1906**

-Ermeni quldur birləşmələri azərbaycanlılar yaşayan Karxana kəndinə basqın edərək kəndin bütün kişilərini öldürmüş, qaçıb təpələrin arasında gizlənmiş 30 nəfər qadın və uşaq rəhmsizcəsinə məhv edilmişdir. Qadın sakinlərinden bir nəfər de canını quldurlardan qurtara bilməmişdir.

**19) 21.02.1914**

-Türkiyənin Qars və Ərdahan şəhərlərində Türkiyə parlamentinin deputatı "Hinçaq" təşkilatının üzvü Stepan Ter Danilyanın rəhbərliyi ilə 30 minədək türk qətlə yetirilmiş, körpələr odda yandırılmışdır.

**20) 25.02.1915**

-Rus ordusunun Van şəhərini tez bir zamanda zəbt etməsi üçün ermənilər qiyam qaldırdılar. Türk kişilərini cəbhədə olduqlarını bilərək kəndlərə soxulmuş qadın və uşaqları qırmışlar. Van şəhərinin müsəlmanlar yaşayan məhlələrini tamam yandırmışlar.

**21) 12.02.1918**

-Türkiyənin Ərzurum şəhər dəmiryol stansiyasında erməni silahlı quldurlar 10 nəfərgünahsız türkü güllələmişlər.

**22) 17.02.1918**

-Türkiyənin Tənəköy kənd sakinləri cinsindən və yaşından asılı olmayaraq, quldur başçısı Andranik Ozanyanın rəhbərliyi ilə tamamilə qılıncdan keçirilmişdi.

**23) 20.02.1918**

-Ərzurumda ermeniler 270 türkü Yakutiya qornizonunun hamamına doldurub öldürmüşlər.

**24) 25.02.1918**

-Ərzrum dəmiryol stansiyasında erməni quldurları10 türkü qetla yetirmişlər.

**25) 18.03.1918**

-Şamaxı. Səhər tezdən erməni quldurbirləşmələri şəhərə soxulmuşlar. Onlar evləri yandırır, tanınmış ictimai xadimləri, ziyalıları öldürürlər. Rusiyanın Birinci Dövlət Dumasının sabiq üzvü Memmadtağı Əliyev də xüsusi qəddarlıqla qətlə yetirilmişdir. Dinc sakinlər ağılasığmaz işgəncə və əzab-əziyyətlə öldürülürdülər. Küçələr işgəncə verilmiş, döşləri kəsilmiş və qarınları yırtılmış qadınların meyidləri ilə dolu idi. Payalarla torpağa sancılmış uşaqların qalaq-qalaq meyitləri şahidləri dəhşətə gətirmişdi. Fövqəladə istintaq komissiyasının üzvü A.Novatskinin fikrincə, Şamaxını viran qoyan erməni quldur dəstələri bir ideyadan öldürmək və qarət etmək, qarət etmək və öldürmək ideyasından ruhlanmışdırlar.

**26) 19.03.1918**

-Bakı fövqəladə istintaq komissiyasının sənədlərində deyilir ki, martın 19-da tezdən azərbaycanlıların hələ yatdıqları vaxt şəhərin onlar yaşayan hissəsinə hücum başlanmışdır. Azərbaycanlılar nələr baş verdiyini hələ anlaya bilməmişdilər. Qanlı əməliyyatların bilavasitə başçısı "Daşnaksütyun" terror təşkilatının fəallarından biri Bakıda qeyri erməni əhalini kütləvi surətdə qırmaq barədə S.Şaumyanın göstərişini yerinə yetirən Stepan Lalayev olmuşdur. Komissiyanın sənədlərinəgörə, o dinc vətəndaşların öldürülməsində şəxsən iştirak edirdi.

Xüsusi mühim işlər üzrə məhkəmə müstəntiqi Komarovskinin raportuna görə, erməni quldurlar Bakının mərkəzi küçələrində evlərə soxulur ve silahsız sakinləri öldürürlər.

**27) 21.03.1918**

- Bakı. Şahidlərin dediklərinə görə, "Daşnaksütyun" terror təşkilatının saqqallılardan ibarət dəstəsi rus inqilabının bayrağı altında İçəri şəhərin girəcəyindəki binanı mühasirəyə almışdır.

Burada 2000 nəfərədək yaralı və xəstə azərbaycanlı, rus, ləzgi və yəhudi vardı. Erməni terrorçu Hamazaspın və "Daşnaksütyun"un üzvü öz qədarlığı ilə ad çıxarmış Anastas Mikoyanınəmri ilə emənilər həmin binaya kerosin tökərək hər tərəfdən od vurmuşlar.

Bu dəhşətli mənzərəni uzaqdakı bir binanin damından açılan iri deşikdən müşahidə etmiş Bakı sakini demişdir ki, o, yanıb kömürə dönmüş və qalaq-qalaq yığılmış meyidlərin arasında yarımcan adamlar görmüşdür. Onlar dözülməz o əzab-əziyyət içində qıvrilir, inləyirdilər.

**28) 20-21 mart 1918**

-Gözəldərə. Kənd sakinləri Novruz bayramın qeyd edərkən təpədən-dırnağadək silahlanmış erməni quldurları kəndə basqın etmişlər. Həmin günlərdə 600 dinc sakin öldürülmüş, kənd isə yandırılmışdır. Müsəlman qadınların kiçik bir dəstəsi meşəyə qaçmış, lakin ermənilərəəsir düşməkdən qorxaraq özlərini öldürmüşlər.



**29) Mart 1918**

-Şamaxı. Şamaxı qəzasındaki Qubalı kəndinə hücum edən erməni quldurları 250 kişini. 150 qadını 135 uşağı görünməmiş üsullarla öldürmüşlər. Südəmər körpələrin kütləvi surətdə öldürülməsi dünya tarixində görünməmiş haldır.

**30) Mart 1918**

-Şamaxı.Quşçu kəndinə ermənilərin basqını nəticəsində 192 kişi, 115 qadın, 25 uşaq öldürülmüşdür. Kəndlilərin əmlakı talan edilmiş, evləri yandırılmış, müsəlmanların müqəddəs kitabı və məscidi mundarlanmışdır.

**31) Aprel 1918**

-"Daşnaksütyun"un göstərişini yerinə yetirən silahlı erməni quldur birləşmələri Bakıdan Navahi stansiyasına gəlmiş va savet hakimiyyəti adından yerli əhaliyə ultimatum vermişlər. Sakinlər dırnaqların hakimiyətini tanımaqdan imtina etdikdə onlara amansızcasına divan tutulmuştur. Həmin stansiyada ermənilər 55 kişini, 260 qadını va 140 uşağı öldürmüşlər. Qətlə yetirilənlər və yaralananlar arasında Azərbaycan, rus, ləzgi ve yahudi millətlərinin numayəndələri vardı.

**32) 25.04.1918**

-Qars. Erməni quldurlar qars vilayətinin şərqində yerləşən Subatan kəndində 750 türkü öldürmüşlər. Şahidlərin dediklərinə görə, ermənilər 257 uşağı Tıptib küçəsinə yığaraq qaddarcasına qətlə yetirmişlər.

**33) 29.04.1918**

-"Daşnaksütyun" terror təşkilatının göstərişini yerinə yetirən quldur dəstələri Gümrü yaxınlığında 3 min adamı öldürmüşlər.

**34) Aprel 1918**

-Hamazaspın dəstəsinin hətta südəmər körpələrə rəhm etmədiyindan xəbər tutan Devaçibazar va Qızılburun kəndlərinin sakinləri yığınçaq keçirərək 15 nəfər hörmətli ağ- saqqalı quldur dəstəsini duz-çörəklə qarşılamağa göndərməyi qərara almışlar. Bu yerlərin sakinləri əminidilərki,Qafqazadətinə uyğun olaraq agsaqqalların duzçörəklə qarşıya çıxması sülhsevərlik və qan tökülməsinə yol verməməyə çalışmaq rəmzi sayilir. Amma Hamazasp quldurlarının bu qocalara qarşı törətdiyi vəhşilik bütün mahalı sarsıtdı...

**35) 1-2 may 1918**

-Quba Fövqəladə istintaq Komissiyasınınüzvü A.Novatskinin məruzəsinə görə, Hamazaspın dəstəsi səhər tezdən Quba şəhərini mühasirəyə almışdır. Mülki əhalininsilahsız olduğundan xəbər tutan ermənilər Qubaya soxularaq 200 evi və 22 məscidi dağıdaraq yandırmışlar. Təxminən üç min nəfər öldürülmüşdür.

**35) 21 may 1918**

-Axalkalaki. Rus hərbi həkimi Xoroşenkonun malumatına görə, "Daşnaksütyun"un peşəkar qatilləri Axalkalaki ve etraf kəndlərdə yüzlərlə azərbaycanlını doğram-doğram etmişlər. Malumatda deyilirdi: "XX əsrinsivilizasiyalı ermənilərinin vəhşilikləri bax,budur"

**37) May 1918**

-Artyom Avaesovun başçılıq etdiyi erməni quldur birləşmələri Xaçmazdan Qubayadəkbütün yol boyunca yaşayan dinc əhaliyə qanlı divan tutmuşlar. Öldürülmüş azərbaycancanlıların bir qisminin meyitlərini iki-iki, beş beş bir qəbirdə basdırdılar. Tarixi sənədlərə görə dəstenin başçısı Hamazasp deyirdi ki, bütün müsəlmanları tadağlaradak məhv etmək əmri almışdır.

**38) 05.02.1919**

-Saqqalı silahlı ermənilər Abdulluq kəndinə daxil olub 25 uşağı, 15 qadını, 50 kişini vəhşicəsinə öldürüb, 144 evi yandırıb. Gilani, Turani kəndində 10 kişini, 1 qadın va bir uşağı qətlə yetirərək yandırmışlar.

**39) 06.02.1919**

-Erməni quldurları Mehman kəndinə hücum edib, 29 kişini, 10 qadını, 12 uşağı öldürmüş, 37 evi yandırmışlar.

**40) 07.02.1919**

-Kərənti kəndinə hücum edən erməni quldurları 15 kişini, 3 qadını, 5 uşağı qətlə yetirmiş, meyidləri təhqir etmişlər.

(ardı növbəti sayımızda)

*Əvəz Mahmud Lələdağ*
*Şair, dramaturq,*
*publisist.*
*SDU-nun müəllimi*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA
DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

# Deputat: "Bütün kəndlərimiz, qəsəbələrimiz, şəhərlərimiz darmadağın edilib"

**"İşğal altında olan torpaqlarımız Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq azad edilir. Biz inanırıq ki, müzəffər Azərbaycan Ordusu torpaqlarımızın bütövlüyünü və suverenliyini bərpa edəcək".**

Bu haqda Milli Məclisin Elm və Təhsil komitəsinin sədri Bəxtiyar Əliyev parlamentdə çıxış edərək bildirib ki, bu gün Prezident İlham Əliyev xarici mətbuatdakı müsahibələrində



Azərbaycan dövlətinin siyasətini və baş verən hadisələri çox ardıcıl şəkildə dünya ictimaiyyətinin diqqətinə çatdırır: "Cənab Prezident Azərbaycanın ünvanına səsləndirilən xoşagəlməz məsələlərə də aydınlıq gətirir. Bir daha diqqətə çatdırır ki, Azərbaycan Respublikası terrorçuluğa qarşı mübarizədə həmişə ön sırada dayanıb. Bununla bağlı bir faktı diqqətə çatdırmaq istəyirəm. 2001-ci ilin sentyabr ayında ABŞ-da terror hadisəsi törədiləndə AŞPA-da Avropa ölkələri susqunluq nümayiş etdirəndə, o zaman nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyev məsələ qaldırdı və bildirdi ki, biz bu məsələyə susmalı deyilik və terrorizmə qarşı mübarizədə qüvvələrimizi səfərbər etməliyik".

**B. Əliyev vurğulayıb ki, bu sözlər hələ o zaman deyilib və Azərbaycan xalqının, dövlətinin iradəsi ortaya qoyulub: "Bu gün torpaqlarımız işğaldan azad edildikcə görürük ki, bütün kəndlərimiz, qəsəbələrimiz, şəhərlərimiz darmadağın edilib. Mədəni sərvətimiz məhv edilib. Düşünürəm ki, bu məsələlərlə bağlı sənədləşmə aparılmalı, cinayət işləri qaldırılmalı, bu işdə əli olmuş bütün insanlar cinayət məsuliyyətinə cəlb edilməli və onlar haqqında tədbirlər görülməlidir".**

Nicat Novruzoğlu

# HƏKİMLƏR QƏHRƏMANDIRLAR VALLAH

**”FHN-nin modul tipli xəstəxanasındayam. Abartmadan deyirəm, burda bir insanlıq dramı yaşanır. Yazıram ki, özünüzə bir az çəki-düzən verəsiniz. Korpusun qabagında durmuşdum. Hələ yerləşdirməmişdilər. Bir yaşlı qadın ağlaya-ağlaya korpusdan çıxanda qabağını həkimlər kəsdi. Nə qədər yalvardısa, həkimlər çölə qoymadı. 70-75 yaşlarında olardı, korona virusa yoluxmuşdu.**

Dedi heç olmasa uzaqdan bir dəfə görüm onu. Nə dediyini anlamadım. Öyrəndim ki, oğlu reanimasiyada yatır. Halı pisləşib, komaya düşüb. Vəziyyəti kontroldan çıxıb. Görüşdürmədilər, düz də etdilər. Özü də agır xəstəydi çünki. Işıq direyinə sarılıb ağlayırdı, yalvarırdı. Yaşlılar rəsmən can verir. Hərəsinə bir balon qoşub gəzdirirlər, şlanqı çıxaran kimi aləm qarışır.



O boğulmaqların səsi götürüb palataları. Qan növbəsində cavan bir oğlanın başına tökülüşdülər. Nəfəsi gedib gəlmirdi. Tez öz növbəmi ona verdim. Şəkli də var, paylaşmaq istəmirəm. Bunu yazıram ki, sadəcə real vəziyyəti biləsiz. Saat 22.00-dur, ambulansların ardı-arası kəsilmir. Yenə xəstələr gətirirlər. Həkimlər əldə balon maşına tərəf qaçırlar. Virusa inanırdım, amma belə oldugunu bilmirdim. Həkimlər dayanmadan işləyirlər. Qəhrəmandılar vallah. Xidmət superdir. Sanki oteldəyik. Ürəyin istəyən hər şey. Hər dəqiqə bir həkim gəlir sorğu-sual edir. Həkimlərin üz-gözləri qıpqırmızı, yara içindədir, evlərinə günlərdir getmirlər. Paltar, üzdə maska, yekə kaska.

Dövlət həm ön cəbhədə, həm də arxada möhtəşəm işlər görür .

***P.S:** Qızdırmam 38, ciyərim dagılır öskürəndə. Deyirsən adi qripdir. Adi qripdə can vermək var, ay insafsız?! Adi qrip adi qripdir. Bu qrip deyil !!! Ailəlikcə virus tutub, bogulanlar var. Ər-arvad, uşaqları. Dəhşətdir sadəcə. İnanmırsan inanma, amma başqasının həyatıyla da oynama!”*

**Xaqani Hüseynov,**
**XəzərAzərbaycan**

# Bəs mən haranı almalıyam?..



**Keşlədə yaşayan, əsgərliyə çağırış yaşı çatmış oğlanı səfərbərlik xidmətinin əməkdaşı zorla çağırışçıların mindiyi avtobusdan yerə salıb. Deyib çağırışçıların bir qismini hazırda orduya götürməyə imkan yoxdur. Təcrübəli könüllülər çoxdur. Ona görə də, yenicə çağırış yaşına çatan gənclərə hələlik ehtiyac yoxdur. Bununla razılaşmaq istəməyən çəlimsiz çağırışçını da avtobusdan düşürmək üçün razılaşsın deyə telefon nömrəsini də verib ki, narahat olma, mənimlə əlaqə saxla, çağırışçıların növbəti toplanışına səni də, mütləq çağıracağıq.**

Orduya çağırış xidmətinin əməkdaşı deyir, elə ertəsi gün, saat 9:00-da çağırışçı ona zəng edir:

- Salam, yoldaş mayor. Bu, Keşləli Nurəhmədov Ağakərim Baba oğludur. Yadınızdadırmı, Siz mənə söz vermişdiniz, əsgərliyə aparmağa...

Səfərbərlik xidmətinin əməkdaşı da cavab verir ki, Ağakərim, bala, işimiz çoxdur.

Narahat olma, zərurət yaranan kimi sənə zəng edib, çağıracam.

Əməkdaş nağıl edir ki, saat 14:00-da Ağakərim yenidən zəng edir:

- Salam, bu, Ağakərimdir. Bəs mənim əsgərlik məsələm nə oldu? Mayor Kərimov da, yenidən Ağakərimi birtəhər yola verir. Deyir narahat olma, tezliklə çağıracam.

Ertəsi gün saat 09:00 olan kimi, Ağakərim zəng edir:

- Salam, yoldaş mayor. Zəng edən Keşləli çagırışçı Ağakərim Nurəhmədovdur. Bəs Siz mənə söz vermişdiniz, zəng edəcəksiniz... Mayor yenə də Ağakərimi dilə tutmağa başlayır:

- Ağakərim, bala. Orduya getmək istəyənlər çoxdur. Bizim başımızı qaşımağa vaxtımız yoxdur. Bizi tez-tez narahat etmə. Vaxtı çatanda səni də, çağıracağıq, tələsmə.

Bir sözlə, Səfərbərliyin əməkdaşı deyir, Ağakərimin əlindən telefonu qaldırmaqdan bezmişdim. Axırda səsimi qaldırıb, ötkəm tonla "bəsdir də, Ağakərim. Sən bizi işləməyə qoymursan. Belə getsə səni basaram əsgərliyə. Yekə oğlansan, imkan ver işləyək. Sənə dedim axı, vaxtın çatanda çağıracam..." dedim.

**Ağakərim də qayıdır ki, mən başa düşmürəm. Artıq yer qalmayıb, ordumuz hər yeri alır. Odur, əsgərlərimiz Şuşanı da almaq üzrədirlər. Bəs mən haranı almalıyam?..**

İmdad Əlizadə

# Üzümü divara söykəyib...



**Dostlar soruşurlar ki, Laçın, Oğuldərə işğaldan azad olunduqdan sonra kəndə gedəndə birinci nə edəcəksən?**

**Bu sualın cavabı atam Əli Əliyevin ”Əlli dörd gün erməni mühasirəsində” kitabında var. Atam yazır:**

**”...Vida vaxtı çatmışdı. Üst evə qalxıb sandığı açdım. Bir ağ torba tapdım və həmin torbaya bir cüt qara ayaqqabı, bir cüt yun corab qoydum. Sonra çörək və yağ-pendir yığdım. Hazırladığım əşyaları götürdüm. Üst evin qapılarından öpdüm, pilləkənlərin başında üzümü divara söykədim, yenə də öpdüm, aşağıya endim. Pilləkənin ayağında diz çökdüm, üzümü pilləkənə söykədim, gözümün yaşı ilə ağacı və daşı islatdım, yenə də öpdüm. Dilsiz daş-divarla danışdım. Dedim ki, bağışla, ata ocağı, bağışla ki, səni qoruya bilmədim. İkimərtəbəli və beş-altı otağı olan evimdən, on beş metr uzunluğu, səkkiz metr eni olan tövlədən, tövlə dolu mal-qaradan, evdəki hər şeydən mənə düşən pay bu oldu - bir ağ torba, bir cüt qara ayaqqabı və bir cüt də yun corab...”**

**Oğuldərəyə gedəndə evimizin yerini tapacam. Düşmən evimi yandırsa, dağıtsa da, əminəm ki, divarların bir hissəsi qalıb. Üzümü divara söykəyib deyəcəm: ”Gözün aydın, ata ocağı, biz qayıtdıq. Ruhun şad olsun, ata, gözün arxada qalmasın! ”**

Aslan Quliyev

# Söyüşmək mənasız vaxt, əsəb itkisidir



*Qələbəyə yaxınlaşdıqca daxildəki və xaricdəki köstəbəklər fəallaşacaqlar. Ayıq-sayıq olmalıyıq. Savaş təkcə cəbhədə qazanılmır. Təlxək səviyyəsində şoularıyla gündəmə gələnlərin haqq işimizə kömək eləmək əvəzinə kölgə salmalarına, Müqəddəs savaşımızı qadınlara qarşı iyrənc hərəkətlər səviyyəsinə endirmələrinə qarşı barışmaz olmalıyıq.*

*Gənclərə məsləhətim, nə Paşinyanın, nə arvadının haqqında söyüş yazmaq bizə heç bir fayda gətirmir, gətirməz də. Erməni sosial şəbəkələrinə girib ermənilərlə söyüşmək mənasız vaxt, əsəb itkisidir, onların səviyyəsinə düşərsiniz. Bildiyiniz dillərdə faktları yazın, qoy oxuyanlar kimin haqlı olduğunu görsünlər. Onlar söydükcə, siz də söysəniz, aramızda fərq qoymayacaqlar. Ermənilər bu kimi həyasızlıqlarla məşğuldular, nə qazandılar? Yalnız bir faktı deyim. Rus mediasının və teleefirinin, yəni rus cəmiyyətində fikir formalaşdırmalı olan bu qurumların 80 faizi xəcalət çəkmədən üzərimizə qıpqırmızı böhtanlar yağdırdıqları bir vaxtda, sadə rusların70 faizindən çoxu sosial şəbəkələrdə onları yox, bizi haqlı sayırlar.*

*Bunun bir səbəbi Paşinyanın timsalında rusların erməni xislətinin nə demək olduğunu bir daha görmələridirsə, əsas səbəbi isə, bu cür abırsızlıqları, qarayaxalıqları, az qala hamını özlərinə borclu hesab eləmələridir.*

## *Bezos 10,2 milyard dollardan çox məbləğinə "Amazon" səhmlərini satıb*



**"Amazon" şirkətinin baş icraçı direktoru Ceff Bezos bu həftə korpasiyasının səhmlərini 3,1 milyard dollardan çox məbləğinə satıb.**

**Bu barədə CNBC telekanalı xəbər verib. Bildirilib ki, C.Bezos avqust ayında 3,1 milyard dollardan çox, fevralda 4,1 milyard dollardan çox məbləğinə "Amazon"un qiymətli kağızları satıb. Bu həftəni nəzərə alaraq, dünyanın ən varlı adamı keçən il ilə nisbətən (2,8 milyard dollar) bu il 10,3 milyard dollardan çox səhm satıb.**

**MEHRİBAN**



**Faiq QİSMƏTOĞLU**
**Əməkdar jurnalist**

# ARXA CƏBHƏ

... Ön cəbhədə Azərbaycan Ordusudu, Azərbaycan Əsgəridi! Və bu Azərbaycan Ordusu gecə-gündüz bilmədən erməni işğalçıları ilə döyüşür, torpaqlarımızı yağılardan azad edirlər. O Azərbaycan Əsgəri ki, onun gücü, qüvvəsi qarşısında erməni ordusu diz çöküb və pərən-pərən düşüb... O Azərbaycan Ordusu ki, bir ay müddətində 4 şəhərimizi, 3 qəsəbəmizi, 200-dən çox yaşayış məntəqəmizi ermənilərdən xilas edib... O Azərbaycan Ordusu ki, əsgərlərimizin boyuna-buxununa baxanda qürur duyuruq... Ki, onlar işğaldan azad olunan şəhərlərimizə, kəndlərimizə, qəsəbələrimizə bayrağımızı sancıblar...

... Ordu ön cəbhədə öz sözünü deyib və deyir. Hələ ən böyük sözü isə yaxın zamanda - Laçın, Şuşa, Kəlbəcər azad olunanda deyəcək. Və biz o anları, o dəqiqələri, o məqamları hər an gözləyirik, hər zaman gözləyirik! Və bu an Allaha and olsun ki, tezliklə gəlib çıxacaq. Bunlar hamısı gün kimi aydındır. Müharibədə iki cəbhə var: biri ön cəbhə, biri də arxa cəbhə! Və bu hər iki cəbhə bir-birilə çox doğma, çox əziz və çox yaxındılar. Hər ikisi bir-birinə arxa, bir-birinə söykək, bir-birinə kömək olmasa, o birində vəziyyət axsaya bilər.

Biz tarixən həmişə ön cəbhəylə arxa cəbhənin qardaş olduğunu görmüşük. Bizim xalq çox əzab-əziyyət, çox müsibətli günlər görüb. Heç uzağa getməyək, 1941-45-ci ildə Böyük Vətən Müharibəsində Azərbaycan 400 minə yaxın şəhid verib. Üstəlik də Bakı nefti olmasaydı və arxa cəbhə ön cəbhəyə söykək durmasaydı, çoxdan almanlar SSRİ-ni almışdı. Çox təəssüf ki, bizə bu ölkənin başbilənləri heç vaxt dəyər vermədilər. İndi durub yekə-yekə danışırlar. Bakı neftinin gücünü və qüdrətini kim bilməsə də, o başbilənlər yaxşı başa düşürdülər.

Bunlar hamısı tarixin arxivində qalıb. İndi isə əsl Böyük Vətən Savaşıdır. Biz bu savaşı alman faşistlərindən də vəhşi və amansız olan erməni faşistlərinə qarşı aparırıq. Artıq ön cəbhədə Azərbaycan Ordusu onların dizini yerə qoyub və anasını ağladıb. Deməli, bizim əsas vəzifələrimizdən biri arxa cəbhədə üzərimizə düşən işi yerinə yetirməkdir. Yəni bu da ondan ibarətdir ki, ölkəmizdə hərə öz işiylə məşqul olmalıdır. Pambıqçı pambığını yığmalıdı, bostançı bostan-tərəvəz məhsullarını toplamalıdır, meyvəçi meyvələrini yetişdirib bazara çıxarmalıdır. Başqa sözlə demiş olsaq, hər bir kəs müharibə vəziyyətinə uyğun olaraq işləməli, çalışmalı, öz üzərinə düşən missiyanı yerinə yetirməlidir.

Öncə cəbhəyə gedib müharibədə, yəni Böyük Qarabağ Savaşında döyüşən əsgərlərimizin, zabitlərimizin və müddətdən artıq qulluq edənlərimizin ailəsinə, övladlarına, valideynlərinə öz doğmalarımız kimi baxmalıyıq. Cəbhədəki əsgər arxayın olmalıdır ki, onun ailəsi, uşağı, anası, bacısı arxa cəbhədə qorunur və onlara hörmətlə yanaşılır. Əgər bir kimsə əsgər ailəsinə kəm gözlə baxırsa, o gözü çıxarıb atmaq lazımdır. Əsgərin, döyüşçünün bütün fikri-zikri ancaq döyüş olmalıdır. İrəli gedib torpağımızı azad etmək və bayrağımızı həmin əraziyə sancmaq! Bax, bu, Azərbaycan Əsgərinin əsas işidir.

Düzdür, indi fabrik-zavodlarımız elə çox deyil. Amma adətən müharibə şəraitində fabrik-zavodlar cəbhəyə görə 24 saat işləyirlər. Amma bu gün də Azərbaycan əsgəri üçün paltar tikən, ayaqqabı tikən və zəruri əşyalar hazırlayan müəssisələrimiz var. Təbii ki, onlar 24 saat çalışırlar. Və ona da çalışırlar ki, gördükləri iş daha keyfiyyətli olsun. Əsgərlərimizin qış geyimləri istiliyilə seçilsin. Bax, bu işləri görən insanlara da eşq olsun!

Müharibə o demək deyil ki, elə hamı əlinə silah alıb döyüşə getməlidir. Böyük müharibə odur ki, məmə yeyəndən, pəpə deyənə qədər hamı cəbhə üçün çalışır. Yəni ona çalışır ki, səngərdə olan əsgər geyimdən, qidalanmadan və digər zəruri vasitələrdən korluq çəkməsin. Şükürlər olsun ki, Ordumuz bu gün bütün sahələrdə yüksək təchizata malikdir. Bu isə o deməkdir ki, qüdrətli Azərbaycan əsgəri üçün arxa cəbhə həmişə nə lazımdırsa onu edib.

İndi ölkəmizdə pambıq yığımı davam edir, mer-meyvə toplanır. Həttə sahələrdə olan kartof, soğan və digər bostan-tərəvəz məhsulları yığılaraq anbarlara gətirilir. Gədəbəydə kartof, Ağdamda soğan, Sabirabadda, Bərdədə pambıq, Qubada, Qusarda mer-meyvə, Lənkəran, Astarada subtropik meyvələr yığılaraq bazarlara göndərilir. Müharibə davam etsə də, arxa cəbhədə bir gün, bir saat da olsun işlər fasilə vermir. Elə belə də olmalıdır!

Əgər böyük savaşdırsa, bütün sahələrdə məsuliyyət və diqqət önə çəkilməlidir. Yəni müəllim öz işini vicdanla görməli, həkim daha diqqətli olmalı, çörəkçi keyfiyyətli çörək bişirməli, sükan arxasında olan avtobus sürücüsü insanları mənzilbaşına apararkən məsuliyyəti yadından çıxarmamalıdır. Əlbəttə, bütün bu deyilənlər olarsa, elə arxa cəbhədə ön cəbhəyə söykək durar.

Bir balaca da müharibə şəraitindən istifadə edib, öz maddi maraqlarını təmin etmək istəyən vəzifə sahiblərindən danışaq. Bəzi vəzifə sahibləri dövlətin müharibə şəraitinə başı qarışdığına görə, bundan sui-istifadə eləyir. Yəni onlar insanları get-gələ salır, nəsə umur və adamlardan bir şey qoparandan sonra onların işlərini həll edirlər. Bax, bu cür adamlar tamahlarını saxlamalı, heç olmasa müharibə şəraitində vicdanları varsa, bu çirkli oyunlardan uzaq durmalıdırlar. Ən azından ona görə ki, ölkədə hərbi vəziyyətdir və biz hamımız ön cəbhəyə kömək etməliyik. Belələrinin ön cəbhəyə kömək etmələri bir yana qalsın, heç olmasa vicdanları oyanıb bu çətin durumda onların qəbuluna gələn insanları incitməsinlər və get-gələ salmasınlar.

Biz həmişə hər hansı məsələdə bir qədər ləngiyirik, bir qədər gecikirik və yubanırıq. Ancaq Böyük Vətən Savaşında heç vaxt ləngimək və yubanmaq olmaz. Əksinə, ön cəbhəyə arxa durmaq və lazım gələndə Vətən yolunda döyüşən əsgərlərimizə bütün köməklikləri göstərməliyik. Çünki Azərbaycan Əsgəri görməlidir ki, o, cəbhədə döyüşür və tək deyil. Onun arxasında 10 milyonluq Azərbaycan xalqı durur. Və bu 10 milyonluq xalq həm də Ali Baş Komandan, Azərbaycan prezidenti cənab İlham Əliyevə söykəkdir. Bir xalq ki, güclü olur, bir yerdə addımlayır, onun qarşısını heç bir qüvvə qətiyyən ala bilmir. Hətta sel gələndə belə xalq bir yerdə olanda onun qarşısını ala bilir. Yadıma bir xalq deyimi düşür: "El gücü, sel gücü", yaxud "El bir olsa dağ oynadar yerindən".

Bax, bu deyilənlərə istinad etsək, söykənsək və güvənsək, həqiqətən də görərik ki, bu gün Azərbaycanda çox böyük bir güc var.

Bu güc Azərbaycan xalqıyla onun Prezidenti, Ali Baş Komandan İlham Əliyevin birliyidir. Allah and olsun, bu birliyi heç bir qüvvə; nə ermənilər, nə də onların havadarları dağıda bilər.

Çünki bu birliyi yaradan göydə Allah, yerdə də Azərbaycan Prezidentidir. Və bizim ön cəbhəylə arxa cəbhənin bir-birinə söykək olması tezliklə çox möhtəşəm hadisələrin baş verməsinə gətirib çıxaracaq.

Və biz birlikdə Azərbaycan tarixində yeni bir qızıl səhifə yazacağıq. Və o qızıl səhifə də ondan ibarət olacaq ki, işğal altında olan bütün rayonlarımız, şəhərlərimiz, qəsəbələrimiz və yaşayış məntəqələrimiz azad ediləcəkdir. Bizim hələ gözəl günlərimiz, xoş anlarımız qarşıdadır. Birlikdə olaq ki, həmin anları görək və sevincli məqamları bir yerdə yaşayaq. Çünki biz birlikdə daha güclüyük!..

**Bu gün səhər tezdən gündəlik rejimimdən kənara çıxaraq yolumu marketdən saldım. Gedəcəyim ünvan Bakı şəhəri, Elmlər Akademiyası metrosunun yaxınlığında yerləşən "Spar" marketi oldu. Mağazaya daxil olub lazım olan qidanı alıb kassaya yaxınlaşdım. Yaxınlaşdım ki, ödənişi edib işə gedim. Piştaxtanın üzərində olan qiymətlə mənim ödədiyim qiymət arasında fərqin olduğunu görüb müraciət etdim ki, məndən 70 qəpik əlavə çıxılmış pul geri qaytarılsın. Açığı satıcı tərəfindən gözləmədiyim cavabla üzləşdim, müharibə şəraitində 70 qəpiyimi düşünürsünüz?**

Verəcəyim cavab satıcını şoka saldı: "Müharibə şəraitində olmaq vicdanla çalışmaq deməkdir! Vicdan isə bütün sahələrdə

## "Müharibə şəraitində olmaq vicdanla çalışmaq deməkdir!"

insanlara düzgün xidmət etməkdir!" Bu sözlərdən sonra rəhbərlik belə məndən üzr istəsə də, artıq gec idi. Çünki, mən Rövşən Tahirin alacağı cavab "Müharibə" ilə bağlı olmalı deyildi. Alacağım cavab ən azından üzrxahlıq yönündə olmalı idi. Məni tanıyanlar, yaxın ətrafım bu dönəmlərdə necə həssas olduğumu çox gözəl bilirlər. Mənim Vətənpərvərliyim haqqında danışıb özümü tərif etmiş kimi görsənməyəcəm. Bu məni tanıyanlara onsuz da bəllidir.

İndi isə keçid alım, mənim "Spar" marketi ilə bağlı fikirlərimə. Hörmətli, "Spar" marketin əməkdaşları, sizin işçiyə (ad, soyadını bilmirəm) verdiyim cavabı bir daha təkrar edirəm, müharibə şəraitində olmaq vicdanla çalışmaq deməkdir! Müharibə şəraitində olmaq qiymət fərqi ilə insanlardan qazanc əldə etmək deyil! Necə ki, mən öz sahəmdə bu ölkənin əsgəriyəm, layiqli xidmət edirəm, siz də öz sahəsinizdə bu ölkənin əsgərləri olun. Çıxın, şəxsi təfəkkürünüzdən, şəxsi eqonuzdan. Birlik zamanıdır, Vətənə layiqli xidmət etmək zamanıdır. İnsanların hissləri ilə oynamaq yox.

**P.S.** **Məsələ ilə bağlı İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə müraciət etmişəm. İnanıram ki, qısa zaman ərzində deyilən cümləyə görə məndən üzr istəniləcək və bundan sonra insanlara layiqli xidmət göstəriləcək.**

**Rövşən Tahir**

## *Peskov: Putin 2021-də istefa verə bilərmi?*



*«Bilirsiniz, burada xüsusi şərh olunası heç nə yoxdur. Bu, tam bir cəfəngiyyatdır». Bu sözləri Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov Vladimir Putinin xəstəlik səbəbi və ya ailəsinin istəyi ilə istefa planları barədə "Deyli Meyl"də yayılan xəbəri şərh edərkən deyib.*

*"Prezident yaxşıdır. Sağlamlığı da əladır", - Peskov bildirib. Qərb mediasının Prezidentin istefaya getməyi planlaşdırıb-planlaşdırmadığı barədə sualına isə Peskov konkret cavab verib: "Xeyr!"*

*MEHRİBAN*

# Bərdəli Əliş kişi - El Ağsaqqalı...

**Bakıdan Bərdəyə qonaq gələn dostlarımı məşhur bir yerdə qarşılamaq qərarına gəldim. Burda el arasında "Əlişin kruqu" kimi ən çox tanınan yer bəlkə də ən münasib yer olardı. Adıçəkilən yerə çatanda tərs kimi telefonumdakı "zaryadka" da bitmək üzrəydi. Sıra ilə düzülmüş mağazaların içərisinə boylandım. Amma "telefonumu 10 dəqiqədə elektrikə qoşulmasına icazə verərsinizmi?" deməyə üzüm gəlmədi. Bir əlimdəki telefona-adapterə, birdə "Valyuta Dəyişmə" məntəqəsində iki nəfərin üzünə baxdım. Boyca hündür, saçları ağğappaq, üzündə zəhm, amma eyni zamanda qayğılı bir təbəssüm olan daha yaşlı kişi ayağa qalxdı: "A, qızım, gətir telefonu tax, bura".**

Telefonu sevincək elektrikə taxıb, bayıra çıxmaq istədim. Axı bura kənar adamların girməsi qadağandı-deyə düşündüm. Zəhmli, üzündə xəfif təbəssüm olan ağsaqqal eyni templə dedi: A, qızım , hara çıxırsan, stol götür, otur, bangımızı yarmıyacaqsan ha."

Bu təklifdə göydəndüşmə oldu. Oturdum. Özüm haqqında qısa məlumat verdim. Kiməm, niyə burdayam və s. Ağsaqqal da özünü təqdim etmək istəyirdi ki, qonaqlarım zəng elədi: "Qız, sən indi hardasan?"

**-Mən "Əlişin kruqu"nda sizi gözləyirəm.**

Zarafatcıl rəfiqəm xəttin o başında gülə-güləi:Qız , biz artıq Kürdəmirdəyik. Əliş olmasa da olar, əsas məsələ sən "kruq"da ol, gəlirik-dedi.

**- Gəlin, gəlin, burda Əliş nə gəzir, bir "kruq"du bir də mən!**

Onlarla sağollaşıb, telefonu elektrikə qoşdum.

Ağsaqqalın üzündə zəhmdən əsər-əlamət qalmamışdı. Eləcə mehriban bir təbəssüm vardı üzündə:- Yox , niyə səhv dedin onlara , budey Əliş də burdadı -deyib, əli ilə özünü göstərdi. Bircə onu bildimki, qulaqlarıma qədər qızardım.

Ağsaqqal mənim pərt vəziyyətimi görüb, ürəyi yandı, bəlkə də söhbəti unutdurmaq üçün özü haqqında məlumat verdi.

***Əliş Məcid oğlu Şərifov, özü demiş, yeddi arxa dönəni ilə bərdəli olub. Həm də Bərdənin ən böyük nəsil-nəcabətlərindən, hörmətli tayfadan olublar. Şəcərənin başlangıcı Hacı Şərif adlı əsabələrindən başlayıb. Bərdədə cümə məscidi 1905-ci ildə məhz həmin şəxs tərəfində tikildiyi, oğlu Məşədi Mehdi tərəfindən başa çatdırıldığı məlumdu. Həmin Cümə məscidi Bərdə şəhərinin mərkəzində yerləşir. Əsas giriş qapısının üstündə ərəb rəqəmi ilə 1324-cü il tarixi göstərilib (XX əsrin əvvəli). Bu məscid əsrin əvvəllərindən 1990-cı ilə qədər gübrə anbarı, məktəb və arxiv binası kimi istifadə olunub. Lakin 1990-cı ildən sonra məscid yerli camaatın vəsaiti hesabına təmir etdirilib.***



1956-cı ildə anadan olan Əliş Şərifov da babaları kimi tikib-qurmaqla məşğul olub. Amma o babalarından fərqi olaraq "İpək Yolu"nun üstündə , Şərqin böyük ticarət mərkəzlərindən biri olan Bərdənin yenidən əvvəlki imicini qaytarmağa çalışıb. Hazırda "Əlişin kruqu" deyilən ərazidə ticarət və iaişə obyektləri mövcuddur. Bərdə əhlinə sual versən ki, bu küçənin adı nədir, təbii ki, yadlarına sala bilməzlər. Çünki xalq tərəfindən o əraziyə "Əlişin kruqu" kimi pasport verilib.

***Bərdəni iki tərəfə bölən Tərtərçayın sağ sahilində Qarabağda məşhur olan otel körpünün üstündən ovuc içi kiçi görünür. Xırda göllər, göllər də üzən su sonaları, ətrafın yaşıllığı. gözəlliyi ürək açır. Bu otelin də Əliş kişinin olduğunu yerli əhalidən öyrənmişdim. El ağsaqqalı bildirdi ki, həmin oteldə artıq 7 ailə- təxminən 30 yaxın məcburi köçkün yerləşdirib. Maddi durumlarına yardımçı olduğunu dediyinə peşman oldu:" Qızım, bu dediyimi yazma, xalqın bu ağır günündə yardımçı olmaq hamımızın borcudur".***



Bir dəfə - lap çoxdan Bərdə də qohumuz olan bir molla Elxanla söhbət edirdim. Söylədi ki, Bərdədə bir Əliş kişi var, həm səxavətlidir, həm də çörək verəndi. Kim üstünə diləyə gedib, boş qaytarmayıb, kim işsiz olub, işlə təmin edib, O qədər adama borca pul verib, amma heç geri qaytarmayanlar da olub, kişi üstünü vurmayıb. Sanki elə bir söhbət də olmayıb. Onu xeyir-iş məclisinə dəvət edənlərin məclisindən qalmayıb. Ağsaqqalıq edib. Hədiyyəsini artıqlaması ilə verib.

Hər zaman imkanlı olan, amma hər zaman sadəliyi, səmimiliyi ilə seçilən Ə. Şərifovun belə xarakterə malik olmasının səbəbləri var. Özü deyir ki, həyata fəhləliklə başlamışam, zəhmətlə-əməklə çörəyimi qazanmışam:" Hələ 5 saylı məktəbi bitirib, hərbi xidmətimi də başa vurandan sonra Bərdə Pambıq zavodunda fəhləlik etmişəm. Zəhmətsevərliyimi, işimi kefiyyətlə gördüyümü bilən müdiriyyət məni əmtəəşünas vəzifəsinə qədər irəli çəkdi. Gənc idim, elə bilirdim ki, elə bir iş yoxdur ki, mən onu bacarmayam. Həm də istəyirdim ki, özüm özümü tək işləyərək , tək qazanaraq təsdiq edim. Bax, ticarətə belə başladım. 1980-cı ildən artıq mənim özüməməxsus iş yerim vardı. 1983-cü ildə isə "kruq"da gördüyünüz bu obyektlərin tikintisini başa vurdum. Camaatımı yüzlərlə iş yeri ilə təmin etdim".

***Həmsöhbətim 1996-cı ildən Qarabağ Regional Futbol Federasiyasının prezidentidir. 2019-cu ildən isə Bərdə şəhər Ağsaqqallar Şurasının sədridir.***

İşində qazandığı uğurları ailəsində də qazana bilib.Əliş kişi üç oğul atasıdır. Yeddi nəvəsi var. Oğlanları ali təhsillidir. Sərdar Ədliyyə Nazirliyində işləyir. Amil polis mayorudur. Kinqboksinüzrə səkkizqat dünya çempionu, Bərdənin fəxri Kamil isə polis kapitanıdır. Ordumuza yardım göstərmək, cəbhə xəttinə sovqat aparmaq bu qardaşların sanki boynunun borcudur.

Söhbətimizin sonunda müharibə mövzunu da müzakirə etdik. Ağsaqqalımızın fikirləri sizin üçündə maraqlı olacağını düşünüb, korrektə etmədən təqdim edirik:

"Şah İsmayıl Xətaidən sonra torpaqlarımız parçalandı, paralandı, paylandı. Hər ölkə bir az oğurladı. Düz 500 ildir paralanmış vətənimizin bir qarışını qaytara bilməmişik. İndi budur, Ulu Öndərimizinmərhum Heydər Əliyevin siyasi kursunun davamçısı cənab İlham Əliyev o torpaqları bizə qarış-qarış qaytarır. Bu hadisə 500 ildə ilk dəfədir! Allah Ali Baş Komandana da, igid əsgərlərimizə də can sağlığı versin! Allah bu xalqı xalqlar içərisində ən xoşbəxt xalq etsin! Çünki bizim xalq insani keyfiyyətlərinə, vətənpərvərliyinə, sədaqətinə görə xalqlar arasında ən möhtəşəm yerlərdən birinə layiqdir! Yaşasın xalqımız!



**Əntiqə Rəşid**
**"Ədalət" qəzetinin**
**Qarabağ bölgəsi üzrə**
**xüsusi müxbiri**

İlqar Rəsul

# Onlar işıqlı tarix yazırlar, dünya qara don geyir



***Uşaqlarımız müharibədədi. Atalarımız yox, babalarımız yox, balalarımız.***

***Bundan həssas, bundan zərif, bundan səksəkəli, bundan əndişəli, bundan qürurlu və bundan doğma nə hiss ola bilər ki? 30 il gecikmiş bu zəfər dolu savaşdan qan qoxusundan çox körpə qoxusu gəlir. Düşmənə nifrətdən çox qisasa təşnəlik quyğusu süzülür. Qarabağı azad eləmək istəyindən də çox "Böyük Ermənistan" ideyasını erməni düşüncəsində sındırmaq əzmi püskürür.***

***Və bütün bu əlvan mənzərənn rəsmini bizim balalarımız hələ qarsıyıb qabarlamağa macal tapmamış əllərində od fırçaları tutaraq çəkirlər. Onlar odla zəhər yazırlar, dünya gözünün suyuyla Azərbaycan oxuyur. Onlar işıqlı tarix yazırlar, dünya qara don geyir.***

***Açılası könülləri açır, güləsi üzləri güldürür, kor olası gözləri kor edir övladlarımız ön cəbhədə. Çalışaq arxada onların zəfərinə xələl gətirə biləcək davranışlara yol verməyək. Çalışaq, iki əlimiz də gözlərimiz kimi daima onların kürəyində olsun. Dilimiz onların zəfəri üçün dua etməkdən yana vaxt tapmasın ki, çaşıb belə, könül bulandırmaq imkanı olmasın.***

***Hamımız əsgər çəkməsinin tozuna qurban olmağa, gözümüzün nuru ilə o çəkmələri yumağa hazırkən, bir-birimizi niyə eşitməyək ki? Eşidirik əlbəttə. Gözəl də davranırıq. Ön cəbhədə qələbə qazanmaq üçün arxa cəbhə tam adekvatdı. Amma bir az diqqətli olaq. "Olmaz" olanlara bir az da həssas yanaşaq. Şuşaya bayrağın daha tez sancılması bizdən asılıymış kimi. Laçında koridorun əbədi hasarlanmasına kərpic qoyurmuşuq kimi. Və nəhayət ermənilərin Qarabağa uzanan əlini birdəfəlik kəsir, dikilən gözünü ömürlük kor edirmişik kimi...***

***EPİLOQ***

***Sən elə gözəlsən Azərbaycan!***

***İllah da bu günlər. Çiçəyi çırtlamış arzular kimi sehrli, qız-gəlin kimi sevimli, budaqlar kimi şehli.***

***Səni belə hamıdan fərqli, füsünkar edən Səndə yaşayan millətlərdi. Bu millətlərin Səni və bir - birini çox rahat anlamasıdı. Bu müqəddəs günlərdə bir az daha çox anlayışa ehtiyacın varsa, o da olacaq. Yetər ki, Sən həmişə bugünlərdəki kimi sehrli, sevincli və qürurlu qal.***

***BİZ SƏNİ DÜNYALAR QƏDƏR SEVİRİK, AZƏRBAYCAN !!!***

## *Puşkov: Bayden seçilsə, müharibə başlayacaq*



**Bayden prezident olsa, onun dönəmində ABŞ xarici siyasətindəki ideoloji element güclənəcək. Bu isə Rusiyaya qarşı insan haqları sahəsində hücumların artması deməkdir. Bu məlumatı rusiyalı senator Aleksey Puşkov paylaşıb. O, Baydenin dönəmində intensiv soyuq müharibənin aparılacağını bildirib. Puşkov Baydenin Rusiyanı ABŞ-ın əsas düşməni sayan siyasətçiləri sırasına daxil olduğunu söyləyib.**

## *Moskva koronaya görə 500 milyard itirdi*

**Koronavirus pandemiyasından dolayı paytaxt Moskva 500 milyard rubl itirib.**

**Bu sözləri Moskva meri Sergey Sobyanin mediaya açıqlamasında deyib.**

**"Büdcəyə güclü zərbə dəyib. Buna baxmayaraq, Moskva rəhbərliyi heç bir sosial proqramı ləğv etməyib, hamısını indeksləşdirib", - deyə mer bildirib.**

**MEHRİBAN**

# GÖZLƏRİM DOYMURDU...

## O kənd incik baxırdı bizə

***Mübariz həkimlə həmsöhbət olmaq, onun ovqatına qoşulmaq təkcə mənim yox, onu tanıyanların hər biri üçün həmişə maraqlı olub. Çünki o, ən gərgin anda da insana ümid, müsbət enerji bağışlamaq gücünün sahibidi. Allah onu müsbət enerji mənbəyi kimi yaradıbdı. Mən də uşaqlığımdan bu günə qədər bir həmyerli kimi həyat yolunu izlədiyim Mübariz həkimin torpaqlarımızın işğalından sonra tez-tez döyüş bölgələrində olduğunu, hərbi hospitallarda həkimlərə yardım etdiyini bilirdim. Elə bu günlərdə də eşitdim ki, sentyabrın 28-dən öncə Ağdam hospitalında, sonra da Füzulidə olub. Və... Oradan da hərbçi dostlarin köməyilə Füzuliyə, Tuğa baş çəkib. Bu xəbər bizi onunla görüşə tələsdirdi. Gəldik və onun ilk sözləri belə oldu:***

***"...Yol boyu dağıdılmış, xarabazara çevrilmiş yurd yerlərimizlə addımlayaraq Tuğa çatdıq. Uçurulmuş evlər, əzilmiş avtomobillər, məhv edilmiş toplar, tanklarla dolu ətraf cəhənnəmi, yaşıl dağı, gül-çiçəyi, saf havası ilə Cənnəti xatırladırdı otuz ilə yaxın həsrətini çəkdiyim TUĞ..."***

**- Salam, doktor! Sizi təqdim etməyə, məncə ehtiyac yoxdur, amma yenə də soruşum: Özünüzü necə təqdim edərdiniz?**

-Tibb Universitetinin professoru, "Tədris" Cərrahiyyə Klinikasının Ümumi Cərrahiyyə Şöbəsinin müdiri Mübariz Əliyev.

**-Burda əlavə edim ki, həm də televiziya kanallarımızdakı sağlamlıq verilişlərinin ən sevimli, ən canlı, insanlara səmimiyyət, inam bağışlayan həkimi. Çünki sizin çıxışlarınız istər-istəməz uşaqlı-böyüklü hər kəsi cəlb eləyir. Üzünüzdəki nurla danışığınızın üst-üstə düşməsi xəstəni inandırır ki, ondakı problem ötüb gedəcək. Bax, bu mənada söhbətimizi "Covid-19"dan başlayaq. Bu virus nə qədər çəkəcək?**

-Nə qədər insan, bəşəriyyət var, o qədər də koronavirus infekksiyası olacaq. Yəni, biz bununla yaşamağı öyrənməliyik. Hər ölkənin virusa öz yanaşması var, məsələn, Amerika bir taktikanı, Yaponiya, İsveç, İsveçrə, Türkiyə, Azərbaycan... digər taktikanı irəli sürür, amma heç vaxt demək olmaz ki, kimin taktikası düzgündür, kiminki səhv. Nəticələr eynidir. "Covid"ə qarşı ciddi rejim təyin edəndə də, etməyəndə də nəticələr eyni çıxır. Yəni, belə bir nəzəriyyə var ki, bu virusla hamı xəstələnməlidir, Sars-2 ilə biz ondan qurtaracağıq. Amma heç kim qarantiya vermir ki, Sars-3, Sars-4 çıxmayacaq. Bizim bu tədbirlər nəyə yönəldilib? Birdən-birə hökumətin üstünə külli miqdarda insan xəstələnib gəlməsin. Elə olarsa hökumət çökər. Bu tədbirlər ona yönəldilib ki, xəstələr etap-etap gəlsinlər ki, dövlətin və tibbin gücü çatsın, bunları mərhələ-mərhələ müalicə eləsin. Bugünkü ciddi qanunlar da məhz onun üçündür . Bu, dünyanın hər bir ölkəsində eynidir.



**- Doktor, dünyada tibbin inkişafı gündən-günə irəliləyir. Tibb sahəsində bu qədər alim, həkim, loğmanlar varkən, bir virusa qarşı vaksin yaratmaq mümkün deyilmi ki, heç olmasa yoluxmayanları qorumaq olsun?**

-Dünya təcrübəsi göstərir ki, bir virüsa qarşı vaksin yaradıb tətbiq edilənə qədər, o virus qurtarıb, yenisi başlayır. Həm də indi sosializm dövrü deyil ki, hər şeyi dövlət həll etsin, kapitalizmin öz qanunları var. İstər Amerikada, Yaponiyada olsun, istər Azərbaycanda, istərsə də digər ölkələrdə, kapitalizmdə hədər yerə pul xərclənmir, tutaq ki, vaksin tapılır və o vaxta qədər o virusu başqa birisi əvəz edir. Belə çıxır ki, xərclənən o milyardar havaya sovrulmuş olur. Ona görə də bu virusun vaksininin hazırlanmasında dövlətlər bir az ehtiyatlı davranırlar. İndi deyirlər bizdə vaksin tapılıb. Vaksinin effektivliyi bilirsiniz nə vaxt yoxlanır, kiçik sahədə yox, böyük, kütləvi materialda yoxlanılır. Hələ kütləvi materialda da onun effektivliyi yaxşı öyrənilməyib. Ona görə də ehtiyatla hərəkət edirlər, kütləvi vaksinasiyaya getmirlər, bir dövlət o biri dövlətin vaksininə inanmır. Dünya iqtisadiyyatı müxtəlifdi, nə bilirsən o vaksinin tərkibində nə var. Azərbaycanın da elə bir laboratoriyası yoxdur ki, hardansa aldığı vaksini molekulyar səviyyədə öyrənə bilsin. O dərəcədə mütəxəssis də lazımdır. Azərbaycan balaca ölkədir, bunu Türkiyə eləyə bilər, Rusiya , Almaniya eləyə bilər. Yəni, burda siyasət də var, iqtisadiyyat da var... çox işlər var. O vaksinin içərisində çox şeylər ola bilər. Ona görə də vaksinlərdə də ehtiyatlı olmaq lazımdır.

**-Çox maraqlı bir başlanğıc etdiniz, dediniz ki, bu koronavirus infeksiyasına hamı tutulacaq, birmənalı şəkildə hamımız bu bəlaya məhkumuq, onunla birgə yaşamağa məcburuq.**

-Bəli o viruslarla yaşamağa öyrənmək lazımdır.

**-Siz cəbhə bölgəsindən yenicə qayıtmısınız. Bu artıq neçənci dəfədir ki, bəzən aylarla Füzulidə, Ağdamda və başqa bölgələrdə hərbi hospitallarda qulluqda olursunuz. Belə çıxır ki, bu virus da ermənilərin bir ayrı variantıdır da, biz onlarla da birgə yaşamağa məhkumuq.**



-Bilirsiniz, Ermənistandakı SARS-2 epidemiyası Azərbaycandakından üç-dörd dəfə çoxdur. Onlar kütləvi şəkildə qırılırlar. Onların maddi imkanlarıyoxdur sağalmağa, Allaha şükür, bizim imkanımız var, iqtisadiyyatımız güclüdür, rəhbərimiz bacarıqlıdır və biz xəstəliyə qarşı tədbir görə bilirik. Ermənistan Azərbaycanın qarşısında heç nədir, sadəcə Ermənistana kömək edən, ona milyardlarla dollar dəyərində hərbi sursatlar bağışlayan ölkələr var və onun hesabına bizə arada bir balaca müqavimət göstərə bilirlər, amma ümumi qlobal müharibədə uduzurlar. Onların siyasi dəstəyi də güclüdür. Məsələn, Fransa, Rusiya kimi böyük ölkələr. Bu ölkələr üzdə guya bitərəfdirlər. Amma rus ictimaiyyəti ümumiyyətlə, ermənilərin tərəfindədirlər. Burada çox faktorlar var. Bunları artıq hamı bilir. Bütün bunlara baxmayaraq biz qalib gəlirik. Bu da möhtərəm prezidentimizin 2004-cü ildən indiyə qədər səbirlə yürütdüyü siyasi və iqtisadi siyasətin nəticəsidir. O, bugünü sanki planlaşdırmışdı. Görürsünüzmü, bütün dövlətlər kənara çəkilib susurlar və başları da özlərinə qarışıb. Çünki onların özlərinin problemləri başlayıb yaranmağa. Ona görə də onlar üçün kiçik, bizim üçün böyük olan bu konfliktə maraq göstərmək istəmirlər. Biz öz problemimizi özümüz həll etməyə məcburuq ki, bu da yüksək siyasətə, ağıla, intellektə malik Ali Baş Komandanımız tərəfindən hərtərəfli ölçülüb-biçilib. Qaldı ki, erməni virusu ilə birgə yaşamağa alışmaq, biz artıq ona məcbur deyilik. Amma onların quduzluğuna vaksin ola bilərik. Çünki digər viruslar gec-tez sağalsa da, erməni virusu sağalan deyil, nəsildən nəsilə ötürülərək köklərinin yer üzündən silinmələrinə səbəb olacaq.

**-Burda bir sual ortaya çıxır. Bizim uşaqlığımız, gəncliyimiz Tuğda keçib. Otuz ilin Tuğ həsrəti və yaxın günlərdə gördüyünüz Tuğ?**

-Tuğun təbiəti, iqlimi həminkidir, dəyişməyib. Sadəcə, orda bizim həmvətənlərimizin gülüşləri, sevinc səsləri, onların qonaqpərvərliyi sanki quruyub, yoxdu. Dediyim kimi, təbiət həmin ecazkar təbiətdir, amma oraya məna verən oranın insanlarıymış. Sahibi üçün qəribsəyib o dağlar. Allaha şükürlər olsun, az qalıb o mənəviyyatı da, o mədəniyyəti də biz oraya qaytaracağıq. İnsanlar otuz il əvvəlki insanlar deyil artıq. Bizim insanlarımız bu otuz il ərzində mənəviyyatca çox yüksəliblər. İndiki gənclərimizi görürsünüz, Vətən üçün ölümə hazırdırlar. Artıq heç kim üstündəki o, otuz illik qara ləkəni saxlamaq istəmir. Hamı paklaşmaq istəyir, mənəviyyatının, vicdanının təmizlənməsini istəyir. Qospitallarda əməliyyat etdiyim yaralıların doxsan faizi " tez sağalım, cəbhəyə qayıdacam!" - deyir. Çünki insanlar saflaşmaq istəyirlər. Bu mənəvi yükdən azad olmaq istəyirlər. Müharibədəki bu qələbə sevinci bizi saflaşdırır.

**-Doktor, hələ də o səsiniz qulağımdadır. Biz zəngləşəndə dediniz ki, Füzuliyə görə təbrik ayrı, bu öz yerində, amma Tuğa görə təbrik xüsusidi! Və bildirdiniz ki, Tuğa gedəcəm... Mən də xəyal etdim ki, yolları keçib gedirsiniz, hər tərəf xarabalıq... və arzuların elə bil qapısı açılır. Onda içinizdən hansı hisslər keçdi?**

- Cəbrayıl ərazisində alınmış torpaqlar xarabazara çevrilib, daş üstündə daş qoymayıblar. Yolun sağı-solu məhv edilmiş düşmən texnikası ilə doludur. Düşmənin saysız-hesabsız texnikasını bizim əsgərlər vurub dağıdıblar, sağ olsunlar. Nə qədər orda məhv edilmiş tank, top, yük maşınları və s. gördüm.

Yavaş-yavaş dağları qalxdıqca təbiət yaşıllaşır, gəlib çıxırsan Hadruta. Hadrutu qoyub qaçıblar. Hadrut gözəldir, orda infrastruktur da var, qaz da, su da çəkiblər. Düzdü onlar hamısı "o tərəflər"dən gəlir, amma onları bərpa etmək asandır. Mənim ürəyimdəki Tuğ idi, ən çox Tuğu görmək istəyirdim. Təhlükəsizlik baxımından çox içərilərə qədər getməyə icazə vermədilər. Haqlıydılar, çünki mina təhlükəsi ola bilərdi. Zirzəmilərdə gizlənmiş düşmən ola bilərdi. Amma Tuğun havasını ciyərlərimə çəkdim, o təbiəti, gülü-çiçəyi gördüm. Günəş sanki Azərbaycanın başqa bölgələrindən daha parlaq şəfəq saçırdı Tuğda. O Günəşin istiliyi və Vətənin torpağı isindirdi bizi və bu bizə həlelik bəs elədi. Sevindim ki, yurdumdayam! O Vətəni, o torpağı geri almaq üçün oğullarımız can verdi, qan tökdü. Əsgərlərimizin çox gözəl əhval-ruhiyyəsi vardı. Əsgərimiz ayıq-sayıq, döyüş texnikalarımız da hazır vəziyyətdə durmuşdu.

Sonra qayıtdıq Füzuliyə. Füzulinin bərbad hala salındığını eşitmişdim, amma bu qədərinə inanmazdım - Füzuli yoxdu! Kol-kos, meşə basmız boş sahədi... Amma bir şeyi fərq etdim, Cəbrayılın, Füzulinin azad olunmuş kəndləri xarabazar idi, ağaclar da qırılmışdı, amma Füzulidə o xarabalıqda meşə yaranıb. İki-üç metrlik ağaclar, kol-kos boy verib, sanki burada Azıx yaşında insanlıq tarixinin ən qədim məskənlərindən biri olan şəhər yox, meşə sahəsi varmış. Və mən orada baxılmadan, becərilmədən yaranmış o yaşıllığı görərkən bir daha yəqin etdim ki, Füzuli torpağı ən bərəkətli zonalarımızdan biridir. Şəhəri dağıtmış olsalar da, yerində bir "Füzuli meşəsi" əmələ gəlmişdi.

(ardı 10-cu səhifədə)

# Ağdam xatirələri



***SADIQ MURTUZAYEV***

**(əvvəli ötən sayımızda)**

**Biz bir neçə çadır gətirib və əlavə o zaman respublikanın özündə çobanlar üçün istehsal olunan xırda keçə çadırlar da əlavə edib pioner düşərgəsini təşkil etdik. Elə buna qədər hər kolxoz və sovxoz rəhbərlərini yığıb Nur dərəsində kolxozlar, Şellidəki Qar-qar çayı sahilindəki məşhur bağda sovxozlar üçün kurort-sanatoriya komplekslərinin tikintisinə qərar verdik.**

Bəs bunun üçü maliyyə vəsaitini necə əldə etdiniz sualı ortaya çıxa bilər. Elə axtarış zamanı çox zəngin bir mənbə tapdıq. Kolxoz və sovxozlar hər il ümumi gəlirin 2 faizini mədəni-kütləvi tədbirlərə ayırmalı idi və bu vəsait kolxoz və sovxozların bölünməz fond adlanan göstəricisində toplanmışdı. Hətta belə göstəriciyə görə bu təsərrüfatlar təriflənirdi. Mən buna görə bəzi təsərüfatların rəhbərlərini hətta partiya məsuliyyətinə cəlb etdim. Bax elə bu əsasda indi böyük imkanlar yaranmışdı. Biz bu vəsaiti həmin vəsaiti pioner düşərgələrinin, sanatoriyaların tikintisinə yönəltdik.

### Abdal-Gülablı və Şelli

***sanatoriyalarına ucaldılan çox oriqinal tikililərin tarixi ilə əlaqədar maraqlı bir məqamı qeyd etmək yerinə düşər. Vaxtilə respublika nümayəndə heyəti Gürcüstana təcrübə mübadiləsinə gedərkən Qardabani rayonu ərazisində ümumittifaq komsomol fəalları məktəbi üçün tikilmiş şəhərcikdə çox maraqlı villalar görüb onlardan birinin layihəsini götürmüşdüm. Həmin layihəni Karyer Qasım adı ilə tanınan Qasım Kərimova verdim ki, bu villadan birisini onun rəhbərlik etdiyi daş karxanasına məxsus ərazidə inşa etsin.***

Həm də göstərişim elə idi ki, tikinti 10 gün müddətində inşa edilməlidir. Ağdamın memarı Firdousiyə göstəriş verdim ki, lazımi köməyi eləsin. Layihənin bütün yazıları gürcü dilində olduğundan onlar həmin gecə Qardabaniyə gedib tikinti ilə tanış olaraq səhər Ağdama qayıtmıç və tikintinin inşasına başlamışlar. Tikintini 8 günə başa çatdıraraq mənə xəbər verdilər. Həm də villa Qardabanidəkindən iki dəfə böyük idi və onun eyvanında ən azı 40 nəfər yerləşə bilərdi. Belə tələsikliyin iki səbəbi var idi. Birincisi o idi ki, Qasım Kərimovun qeyri-adi potensialına bələd idim, ikincisi bu idi ki, 10 gündən sonra 1 May nümayişi olacaqdı və burada kolxoz-sovxoz rəhbərlərinin iştirakı ilə o zaman "mayovka" adlı tədbiri keçirməli idik. Bu məqsədimdən heç kimin xəbəri yox idi.

Mən may nümayişindən sonra hamıya göstəriş verdim ki, səhər saat 10-da bütün kolxoz və sovxoz rəhbərləri həmin yerdə olsunlar və Q.Kərimovun onları mayovkaya dəvət etməsi haqqında məlumat verdim.

Ertəsi günü hamı toplaşmışdı və məclis saat 3-dək davam etdi. Hamı biri-birindən xəbər alırmış ki, bu mayovkada katibin bizə məlum olmayan nə isə bir niyyəti var.

### Məclis tamam olandan sonra

***biz, hamılıqla Abdalın Nur dərəsinə yola düşdük. Niyyətim ancaq orada onlara məlum oldu. Əvvəlcə təsərrüfat başçılarından soruşdum ki, siz hər il sanatoriya və kurortlara gedirsiniz, bəs kolxozçular və sovxoz fəhlələrinin yüzdən biri bunu görmür. Axı onların da sizin kimi haqqı vardır. Qasım Kərimov həmin tikintini 8 günə başa çatdırıb, indi sizə 1 ay vaxt verirəm, hər biriniz bundan birini tikməlisiniz. Binaların Firdousi tərəfindən hazırlanmış layihədə evlər nömrələnərək 22 kolxoz rəhbəri arasında püşk atmaq yolu ilə bölüşdürüldü. Buradan 18 sovxoz direktoru ilə Şelliyə yola düşdük və orada da həmin qaydada sovxozlar yerləşdirildi.***

Mən hər gün vaxt tapıbhər ikisinə baş çəkir, rayonun tikinti təşkilatlarına ehtiyacı olanlara müvafiq köməklik göstərilirdi. İşlər vaxtında başa çatdırıldı. Bu yerdə, dəfələrlə müxtəlif yazılarımda qeyd etdiyim ağdamlıların fədakarlığını bir daha qeyd etməyi lazım bildim. Bir xatirə kitabımda qeyd etmişəm, bir daha təkrar edirəm ki, Ağdamda işə başladığımdan iki ay sonra bu qənaətə gəlmişəm ki, bu camaatla dağıdağ üstünə qoymaq olar və bütün çoxsaylı yeniliklərə bu qənaətimlə başlamışam. Lakin bir məqamı gərək yaddan çıxarmayasan ki, onları təşkil etməyin yollarını gərək dərk edəsən, ən başlıcası şəxsiyyətləri dəyərləndirərək hər biriniruhlandıra biləsən. Gərək heç vaxt mənliyinə toxunan söz deməyəsən. Unutma ki, ağdamlı hardasa geri qalmağı, tənqidi də, təhqiri də özünə sığışdıra bilmir.

Ağdam mədəniyyətsarayının tikintisi uzun illər idi ki, başa çatmırdı. Böyük öndər Heydər Əliyev ilk dəfə Ağdama pambıqçıların zona müşavirəsini keçirməyə gələrkən biz müşavirəni Ağdamın mərkəzində deyil, Xındırıstan kəndində keçirməyi nəzərdə tutmuşduq. O, bunu məndən xəbər alarkən bildirdim ki, Ağdamın mərkəzində ən böyük zal Məşədi Abbas tərəfindən mədəniyyət sarayı adı ilə tikilib, sonra Ağdam Dövlət Dram Teatrına verilib və ora 250 nəfərdən artıq adam sığışır. O, dedi ki, bəs ağdamlılar buna necə dözürlər.

Mən cavab verdim ki, bu ağdamlıların yox, onlara rəhbərlik edən adamların günahıdır. O mənə bildirdi ki, bəs indi siz rəhbərlik edirsiniz. Mən cavab verdim ki, indi bu qüsurumuzu aradan qaldırmaq istəyirik. 3-4 il əvvəl başlamış mədəniyyət sarayının tikintisi çox ləng getdiyindən cəmi 20-30% iş görülmüşdü. İndi orada iş 3-4 dəfə sürətlənib və bu qüsuru daha tez aradan qaldlrmaq üçün dəmir, beton konstrukturu ilə 500 nəfərlik üzümçülər evi adlanan saray tikilib istifadəyə verilmişdi.

***Ağdam Dövlət Dram Teatrı. Mədəniyyət sarayının istifadəyə verilməsi ilə vaxtilə ləğv edilmiş və çox görkəmli aktyorlar yetişdirmiş dövlət teatrının bərpa edilməsi məsələsi gündəmə gəldi və bunu tezliklə həll edib şəhər klubunu onun ixtiyarına verdik və az sonra onun da tamaşaçı sayını artırmaq üçün 2 dəfə böyüdülməsi üçün işə başladıq, lakin mənfur qonşularımızın təxribatı bunu yarımçıq qoydu.***

Xan Şuşinski adına Ağdam muğam musiqi məktəbi. Bunu xüsusi olaraq qeyd etmək olar.Bu mənada ki, o, şərqdə ilk belə məktəb idi. Bir neçə il əvvəl Binəqədi rayonunda fəaliyyət göstərən həmin məktəbin yaradılmasının 30 illik yubileyi keçirildi və o zaman bu məktəbin yüzlərlə muğam ustası yetişdirdiyi qeyd olundu. Onun nailiyyətlərində ilk gündən ona rəhbərlik edən Rafiq Rüstəmovun xidmətini xüsusi qeyd etməyə dəyər.

### İmarət

Ağdama fəaliyyətə başlayandan bir neçə gün sonra gözəl şairimiz Hüseyn Arifin bir şeirini aldım. Şeir Xan qızı Natəvanın "İmarət" adlanan məkanında dağıdılmış, sinə daşı hansısa məmurun oğurlayıb evində əlüzyuyan düzəltdiyinə həsr edilmişdir. Mən dərhal həmin məkana baş çəkdim.

***Ağlamalı bir mənzərə gördüm. Natəvanın həqiqətən xarabaya çevrilmiş məzarının ətrafında eşşəklər otlayırdı.Qarabağ xanlarının - Pənah xanın, İbrahimxəlil xanın, Mehdiqulu xanın məqbərələri də eyni gündə idi. Az sonra akademik Əzizə Cəfərzadə Ağdama gələrək həmin məzarla əlaqədar mənimlə görüşdü. Yığcam bir müşavirə keçirib rayonun digər rəhbərlərinə kəskin iradlarımı bildirdim. Respublika memarlar İttifaqına müraciət edib heykəltaraş dəvət etdim.***

Görkəmli heykəltaraş O.Məmmədovu göndərdilər və ona Natəvanın qəbirüstü abidəsini sifarış etdik. Eləcə də Qarabağ xanlarının məqbərələrini bərpa etdik, buradakı mərasim evini bərpa edib sonralar orada Muğam poeziya teatrını təşkil etdik. Bəxtiyar Vahabsadənin "Muğam" poemasını səhnələşdiribilk tamaşanı verdik. Buradakı unudulmuş stadionu mükəmməl abadlaşdırdıq.

***Natəvanın məzarının açılışı çox möhtəşəm oldu. Natəvan qızlar bayramı adlanan tədbirə respublikanın hər yerindən görkəmli qadınları, yaradıcılıq təşkilatlarının nümayəndələrini dəvət etdik. 10 mindən çox qadının iştirakilə tədbirin açılışı oldu. Xalq artisti Amaliya Pənahovanın faytonda Natəvan qiyafəsində stadiona gəlişi uzun sürən alqışlarla qarşılandı.***

### Bir maraqlı məqamı

da elə bilirəm ki, qeyd etmək yerinə düşər. Aramızda böyük səmimiyyət, dostluq yaranmış, xalqımızın iftixarı, Sosialist Əməyi qəhrəmanı, Lenin mükafatı laureatı Fərman Salmanova zarafatyana bir teleqram vurub (o, bu zaman SSRİ Neft və Geologiya nazirinin birinci müavini idi) onu Natəvan qızlar bayramına dəvət etdim. Dərhal cavab verdi ki, "mən gələcəyəm". Bir gün əvvəl Ağdama gəldi. Bayram tədbirindən sonra Ağdamın mərkəzi meydanında təşkil olunan mitinqdə təbrik nitqi ilə çıxış etdi, üç gün Ağdamın qonağı oldu və müxtəlif görüşlər keçirdi. (Onunla tanışlığım 60-cı illərin əvvəlində SSRİ Ali Sovetinin deputatı olduğum zaman başlamışdı.) Natəvan qızlar bayramı ənənəyə çevrilib hər il onun doğum günü təkrar olunurdu.

***Pənah xan qalası. Bu qalanın varlığı haqqında məlumatlar olsa da qaladan əsər-əlamət yox idi. Bu qalanın olduğu məskəndə Şahbulaq adlanan çox möhtəşəm bir bulaq var idi və ağdamlıların da, Ağdərə-Kəlbəcər yolunun üstündə olduğundan buradan keçənlərin də yolüstüistirahət yeri idi. Biz qalanın yerini tapıb onu rayonun imkanları və ictimai əsaslarla bərpa etmək qərarına gəldik. Tədbirdə Kəlbəcərli olub Mingəçevirdə iş adamı kimi məşhur olan Əlif Hacıyevin sponsorluğunu xüsusi minnətdarlıqla qeyd etmək yerinə düşər.***

Bunula əlaqədar yaranan bir xoşagəlməz məqamı da qeyd etmək istəyirəm. Bir gün respublika Nazirlər Sovetinin sədi Həsən Seyidov Dağlıq Qarabağ Vilayət Komitəsinin birinci katibi B.Gevorqov ilə Ağdərəyə gedərkən bu qalanı görüb ondan xəbər alır ki, bu nədir belə, axı burada qala yox idi.

### Mənimlə heç də yaxşı münasibətləri olmayan Gevorqov

izahat verir ki, bunu Sadıq Murtuzayev tikdirib və Sadıq qala adı verib. O, buna inanır və hər ikisinin imzası ilə Mərkəzi Komitənin 1-ci katibi K.Bağırov yoldaşa məktub göndərirlər. O da bu möhtəşəm imzalara görə (hər ikisi Büronun tərkibində idilər) büronun qərarı ilə komissiya yaradıb müzakirəyə çıxarmaq barədə qərar verirlər. Azərbaycan Mənzil Kommunal Bankının sədri bir gün mənə zəng edib sabah komissiya ilə Ağdama gələcəyik deyərək məqsədini bildirdi.Mən Gevorqovla məlumata imza atan Nazirlər Sovetinin sədri Həsən Seyidova zəng edib "bu mənə iftiradır?" sualını verərkən o, "bunda heç bir iftira yoxdur, verdiyimiz məlumat düzdür, orada heç bir qala olmayıb" - cavabını verir. Mən Mərkəzi Komitənin ideologiya üzrə katibi Həsən Həsənova zəng vurub "onların tarixdən xəbərləri yoxdur, siz ki, bunu yaxşı bilirsiniz" qəh-qəhə çəkib gülür və H.Seyidova zəng vurur, lakin onu inandıra bilmir. Mənə "gördün, sözünün üstündə möhkəm dayanıb", "özün Kamran Bağırova zəng vur"deyir.

***Mən K.Bağırova zəng edib məsələni deyərkən o da Mərkəzi Komitə Bürosunun iki möhtəşəm üzvü (Gevorqov üzv yox, namizəd idi) imza atıb, mən inanmaya bilmərəm, "qoy yoxlasınlar" sözlərindən sonra mən özümü saxlaya bilməyib "qoy 100 dəfə yoxlasınlar, özünüz biabır olacaqsınız, yoxlamadan əvvəl tarixi bilənlərdən xəbər alardınız. Siz görəcəyiniz işi mən görmüşəm, bu da mənə sağoldur?" K.Bağırov "yaxşı-yaxşı, qızışma, deyərəm komissiyanı ləğv edərlər." Az sonra komissiyanın sədri Qasımov mənə zəng vurub deyir ki, H.Seyidov məni biabır elədi ki, niyə S.Murtuzayevə məqsədimizi əvvəlcədən xəbər vermisiniz?***

### Ergi qəsəbəsi

Burada indi 4 mindən çox əhali yaşayır. Onun da tikintisinin özünəməxsus tarixi vardır. Qəsəbə 12 min hektarlıq Ergi düzündə, burada yaradılan sənaye əsaslı yem istehsalı birliyinin yaradılması ilə əlaqədar salınmışdır. Kür-Araz tikintisi idarəsinin rəisi Saleh Hacıyev mənə müraciət etdi ki, SSRİ Su Təsərrüfatı Nazirliyi yeni mexaniki suvarma qurğuları alıb və onlardan bizə də vermək istəyirlər. Bunun üçün azı 2 min hektarlıq torpaq sahəsi lazımdır. Belə bir imkanınız varmı?

Mən Ergi düzünü təklif elədim və o, səhəri günü Ağdama gəlib mənimlə Ergi düzünə getdik. Sahə çox münbit idi, lakin su mənbəi yox idi.

**Saleh Hacıyev çox savadlı mühəndis, gözəl təşkilatçı idi (Allah ona qəni-qəni rəhmət eləsin). Burada subartezian quyuları qazmaqla lazımi su mənbəyi yaratmağı qərara aldı və qısa müddətdə 17 quyu qazıldı. "Kuban" adlı mexaniki suvarma qurğusugətirilib quraşdırıldı, biz də bu əsasda təsərrüfatlararası yem istehsal birliyi yaradaraq həmin qışlaq sahəsində qışlayan 120 mindən çox qoyunu yemlə təmin etmək imkanı üçün yem istehsalı zavodu yaratdıq.**

**(ardı növbəti sayımızda)**



# Su kimi get oğul, su kimi qayıt...

Ulduz Qasım

**Əziz əsgərlər, sizə yazmaq istəyəndə Qarabağın havasını duydum, elə bildim mən də ordayam, lap elə sizin yanınızda. Bağımız-bağatımız, gözəl kəndimiz gəldi xəyalıma. Meyvələrin, çiçəklərin-güllərin ətrini duydum sanki. Rəssamların cıza bilmədiyi o mənzərə, o möhtəşəm təbiət tablosu canlandı gözlərimin önündə. Qovaqların pıçıltılarını duydum, nəğmələrini eşitdim. Salxım, boynu bükük söyüdlərin həyalı baxışlarının seyrinə daldım. Ruhuma dinclik, bir hüzün gəldi. Xoşbəxtlərin xöşbəxti oldum.**

Kaş ki belə olaydı!... Kaş ki mən də bir əsgər olub sıralarınıza qarışaydım. Sizə həsəd aparıram. Orada olduğunuz ücün, hamıdan əvvəl o torpaqlara ayaq basdığınız üçün. Xoşbəxtliyə bax, siz oranın havasıyla nəfəs alırsınız. Ayağınızı o torpaqlara basırsınız, oranı azad etmək üçün canınızdan belə keçməyə hazırsınız. Hətta bunu özünüzə şərəf sanırsınız. Sizdən xoşbəxt insan varmı bu dünyada?

Vətən dərdi, Vətən həsrəti insanı öldürür. Ananın, atanın, bacı-qardaşın, hətta övladının ölümüylə, itkisiylə barışırsan, nə zamansa yaraların sayalanır. Amma Vətən itkisi, Vətən yarası sağalmır, sayalanmır, dərdinə məlhəm tapılmır, bu dərd məlhəm götürmür. Səni yandırıb-yaxır, incidir ömrünün sonuna qədər, dərd verir, qanayır. Ayağın ora dəyməyənə qədər, o torpağı öpməyənə qədər sızlayır içindəki yara.

Deyirəm kaş ki, mövcuzə olaydı, quş olub uçub gələydim ayağınızı basdığınız o yerlərə üz qoyaydım. Halal olsun sizə mənim igid əsgərlərim, Vətənimin mərd oğulları! Xoşbəxtliyə bax ki, o qədər döyüş meydanına getmək istəyənlərin arasında sizlərə nəsib olub bu bəxtiyarlıq, məhz belə igid, aslan ürəkli oğulları layiq biliblər şərəfli və müqəddəs vəzifəyə. Halal olsun sizi doğan analara! O torpaq basılmazdı, o torpaq Azərbaycanın ürəyidi, mədəniyyətimizin, tarixinimizin beşiyidi, göz-bəbəyiniz kimi qoruyun o cənnət yerləri, azad edin o xainlərdən!

*Orda ayağına heç daş dəyməsin,*
*Su kimi get, oğul, su kimi qayıt.*
*Düşmənin hiyləsi səni əyməsin,*
*Su kimi get, oğul, su kimi qayıt.*

*Unutma cənnətin özü ordadı,*
*Dünyanın nəzəri, gözü ordadı,*
*Hamının duası, sözü ordadı*
*Su kimi get, oğul, su kimi qayıt...*

*Günəş tellərini yandırıb yaxmaz,*
*Anan namaz üstə, səcdədən qalxmaz,*
*Yağmurlar dayanar, şimşəklər çaxmaz,*
*Su kimi get, oğul, su kimi qayıt.*

*Ədalət sevəndir o böyük Allah,*
*Büdrəməz ayağın sənin inşallah,*
*Qalib gələcəyik deyirəm Vallah,*
*Su kimi get, oğul, su kimi qayıt!*

Hamının duası, yalvarışları sizinlədir inanın. Hətta yeni dil açan, ağlı kəsən uşaqlar belə duaçıdır sizlərə. Möhkəm dayanın, yorulmayın, yağış canınızı islatmasın, günəş telinizi yandırmasın, ayağınıza daş dəyməsin! Hər zaman yanınızdayıq, sizinlə nəfəs alırıq, sizinlə döyünür qəlbimiz. Vətən torpağının bir qarışını belə düşmənə vermək olmaz! Əgər bircə qarış torpağımız gedərsə deməli Vətənimiz tam deyil, onu bölüblər, onu yaralayıblar. Onu qorumaq və həmişə azad etmək sizin ən şərəfli vəzifənizdi. Bu yurd qəhramanlar yurdudu, mərdlər ölkəsidi, unutmayın!

Yolunuzu gözləyirik, qələbəylə qayıdın. Eşq olsun Azərbaycanın mərd və igid əsgərlərinə! Bayrağımızı Şuşa qalasında ucaldacağınız günü səbirsizliklə gözləyirik! Bizlərə dünyanın ən gözəl xəbərini verin, sevindirin. Bunu ölkəmizdəki hər evdə, hər bir insan səbrsizliklə gözləyir, bütün həyatımız buna bağlıdır.

Ar olsun hiyləgər, uşaq qatili namərd düşmənə!

Qələbə bizimdir, Qarabağ Azərbaycandır!

***RƏDD OL TORPAĞIMDAN!***

*Baxıram yollara, Şuşa görünür,*
*Rədd ol torpağımdan, elimdən namərd!*
*Sənə sarı əcəl, ölüm sürünür*
*Rədd ol torpağımdan, elimdən, namərd!*

*Türklərin doğduğu aslan, qurd olur,*
*Ayaq basdığı yer vətən, yurd olur,*
*Mərdin övladı da, sözsüz, mərd olur -*
*Rədd ol torpağımdan, elimdən, namərd!*

*Hiyləni hiyləyə calarsan, billəm,*
*Quldursan, olanı çalarsan, billəm,*
*İblis tonqalları qalarsan, billəm,*
*Rədd ol torpağımdan, elimdən, namərd!*

*Billəm, oğru gəlib əsil, düz olmaz,*
*Sizdə haqqa sarı dönən üz olmaz,*
*Kafəri yüz yusan, heç təmiz olmaz!-*
*Rədd ol torpağımdan, elimdən, namərd!*

*Dedim Allahdan qorx, sonra gec olar,*
*Misal var, gec olan sonra güc olar,*
*Başqasına uyan bil ki, kəç olar…*
*Rədd ol torpağımdan, elimdən, namərd!*

*Sənin xislətindi: arxadan vurmaq,*
*Yalanın beşiyi başında durmaq,*
*Nağıllar uydurub, rəvayət qurmaq…*
*Rədd ol torpağımdan, elimdən namərd!*

*Çaqqaltək sülənmə şirin yanında,*
*Şücaət, qeyrət var Türkün qanında!*
*Başın salamatkən bağa qınında*
*Rədd ol torpağımdan, elimdən, namərd!*

*Özgə ata minən düşər əlbəttə,*
*Canın cəhənnəmdə bişər əlbəttə!*
*Lənətləyər səni bəşər əlbəttə*
*Rədd ol torpağımdan, elimdən, namərd!*

**Moskva şəhəri**

## BQXK Dilqəm və Şahbazın Ermənistana aparılmasını təsdiqlədi

**Dağlıq Qarabağ münaqişəsi nəticəsində saxlanılan azərbaycanlıların Ermənistana köçürüldüyü barədə bizə məlumat verilib.**

Bunu Azvision.az -a açıqlamasında Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan nümayəndəliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova deyib.

Xatırladaq ki, 2014-cü ilin iyul ayında Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcərdə öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan əsgərləri tərəfindən girov götürülüblər, Azərbaycan vətəndaşı Həsən Həsənov isə güllələnərək öldürülüb. H. Həsənovun meyiti düşməndən alınaraq Bakıda dəfn edilib.

İşğal altındakı Dağlıq Qarabağda D. Əsgərov və Ş. Quliyev üzərində qanunsuz "məhkəmə" qurulub. "Məhkəmə"nin qərarı ilə D. Əsgərov ömürlük, Ş. Quliyev isə 22 il müddətinə azadlıqdan məhrum edilib.

# GÖZLƏRİM DOYMURDU...

## O kənd incik baxırdı bizə

**(əvvəli 8-ci səhifədə)**

**-Biz axırıncı dəfə Aslan müəllim, Nəbi müəllim, Fəxrəddin və digər dostlarla bir yerdə olanda siz unutmadığım bir söz dediniz - dünya dağılsa da, mən Tuğa, Yağlıvəndə qayıdacam, orda ev tikəcəm və istirahətimi həmişə orada keçirəcəm.**

-Mən hər yay Avropaya - Alp dağlarına iki həftəlik istirahətə gedirəm. Həyat yoldaşım deyir ki, niyə başqa yerə getmirsən, ancaq hər il eyni yerdə istirahət edirsən. Ona deyirəm ki, daha bahalı olsa da, Alp dağlarının yüksəklikləri, oradakı çəmənliklər mənə bizim dağları xatırladır, İsveçrə isə sanki Qarabağdı. Qarabağın İsveçrəyə çox bənzədiyini dünya da təsdiq edir. Oralara getməklə sanki mən öz itirdiyimiz təbiətimizə oxşar təbiət tapırdım, dincələ bilirdim. Amma daha oralara gedib-gəlməyin mənası yoxdu, öz "İsveçrəmizə" getsək artıqlamasıyla bəs edər. İstirahətimizin ünvanı bundan sonra oralar olacaq və ömrümüzü orada başa vurmalıyıq, çünki ora Vətəndir! Təbiətini bir görsən! Hal-hazırda orada ağacların yarpaqları yaşıl, sarı, qırmızı rənglə elə bir gözəllik yaradıb ki, heyran olmamaq mümkün deyil. Bolluq-bərəkət də bir ayrı gözəllik verir ağaclara. Alma, armud, nar, heyva ağacların budaqlarında, üzüm salxımları dərilməmiş qalıb. Bizim əkdiyimiz ağaclar idi, üzüm kollarıydı, bizə qayıdır, çox şükür! Dərməyə imkan tapmadan qaçıb yersiz qonaqlar. Otuz ildi o parazitlər daraşmışdılar təbiətimizə, Allahın izni, Ordumuzun rəşadəti, Ali Baş Komandanın iradəsiylə özümüzə qaytarıldı. Hər kəsə öz yerini göstərdi. Darmadağın olan düşmən hələ uzun illər bu şokdan ayılmayacaq. Hələ bir az keçsin, Azərbaycanımızın əzəli-əbədi torpağı olan Qərbi Azərbaycanı da səbirlə, mərhələmərhələ o parazitlərdən təmizləyəcəyik.

**- Doktor, sizi çox yormayım, çünki bizim hələ qələbədən sonra çox söhbətlərimiz olacaq. Bircə sual verim, indiki məqamda, yəni 27 sentyabrdan bu yana olanların belə anidən baş verəcəyini siz düşünmüşdünüz?**

-Əmin deyildim, çünki işin içində deyildim və bu, böyük bir dövlət sirriydi. İlham Əliyev məşhur bir siyasətçi, məşhur bir şahmatçıdır. Nə qədər bu insan ağıllı, düşüncəli siyasət yürüdürmüş.

Çünki onu hamıya desəydi, bu iş belə müvəffəqiyyətli alınmayacaqdı. O, Azərbaycan xalqının, dövlətçiliyinin qüdrətini, dünyaya göstərdi və xalqına da göstərdi ki, siz səbirsizlik etsəniz də, mən səbirlə sizə layiq bu günün planını hazırlamışam.

İyirmi yeddisi hadisələr başladı, iyirmi səkkizində mən Ağdamdakı hospitala getdim və yaxşı ki, getmişəm. Orada hiss elədim ki, mən orada lazımmışam. Üç həftə orada çalışdım. Ən ağır xəstələrin əməliyyatını mən edirdim. Gecə də, gündüz də əməliyyat etdiyim yaralıları başqa həkim əməliyyat edə bilməzdi. Çox şükür ki, oraya vaxtında getmişəm. Axırda hiss elədim ki, artıq fiziki gücüm tükənir. Və belə davam edərsə, mən özüm xəstələnə, artıq yükə çevrilə bilərəm. Ona görə Bakıya gəldim, bir az istirahət elədim, yenidən qayıtdım Füzuli hospitalına. Orada komandirlə görüşdüm və hospitalın baş həkimi dedi ki, artıq yeni qüvvələr gəlib, həkimlərimiz komplekt şəkildə buraya cəlb olunub, hər şey normaldır. Bu gün hərbi hospitallar ən yüksək səviyyədə işləyir.

Buna çox sevindim və arxayın oldum ki, həqiqətən də orda çox istedadlı həkimlərimiz var və oradakı insanlarımız əmin əllərdədir. Ona görə də Tuğa getməyi qərara aldım. Söylədiyim kimi Tuğa heç bir mülki şəxsi buraxmırdılar. Həkimliyimə, alimliyimə hörmət edərək otuz il həsrətini çəkdiyim doğma torpağıma ayaq basmağa tələsirdim. Bir az, həsrətimin üç addımlığında olmamdan doğan mərhəmət, bir az dostluq, bir az qayda-qanun... sayəsində doğma torpağı ziyarət etmə xoşbəxtliyini daddım. O ziyarətlə ruhuma bir sərinlik gəldi. O addımla üstümdəki "qaçqın" adlı yükün atıldığını və necə yüngülləşdiyimi hiss etdim!

Ən böyük bir arzum var. Tuğun dağında bir alban məbədi var, onun qarşısında da kiçik bir bulaq.

Bax o dağda Ulu Öndər Heydər Əliyevlə prezidentimiz İlham Əliyevin heykəlinin qoyulmasını istəyirəm. Ətrafdan baxan hər kəsin onu gösməsini istəyərəm. Çünki o dağ o insanların sayəsində alındı.

**-Təşəkkür edirik, doktor, Qələbə günü görüşənədək!**

... Həkimin zamanı məhdud olduğundan biz söhbətimizi bu yerdə saxladıq. O, əməliyyat otağına gedəcəkdi, biz isə redaksiyaya.

Lakin heç ayrılmaq istəmirdik. Çünki onun üz-gözündəki nura, işığa Füzulinin, Tuğun işığı, nuru da qarışmışdı. Onun nəfəsində o yerlərin havası da duyulurdu. Biz elə o işıqdan, o havadan payımızı götürüb Tuğda, Füzulidə birgə olmaq istəyilə ayrıldıq.

**Fəridə Rəhimli**
**Əbülfət Mədətoğlu**

Nizami CƏFƏROV,
akademik

# Yeni kitab: «Heydər Əliyev və Nizami Gəncəvi»



***Redaksiyadan:** Gəncə Dövlət Universitetinin dosenti, Azərbaycan Yazıçılar Birliyinin üzvü, çoxsaylı elmi-bədii kitablar müəllifi Bayram Apoyevin "Şərq-Qərb" nəşriyyatı (2020) tərəfindən nəfis şəkildə çap olunmuş "Heydər Əliyev və Nizami Gəncəvi" adlı elmi-pedaqoji təmayüllü monoqrafiyası artıq oxucuların ixtiyarındadır. Kitabın elmi redaktoru professor Mübariz Yusifovdur. Zəngin axtarışlarla və faktlarla ərsəyə gələn kitaba akademik Nizami Cəfərov ön söz yazmışdır. Elmi cameə kitab haqqında böyük maraq doğuran qiymətləndirmələrlə tanışdır. İki dahi haqqında deyilənlərin gərəkliyini nəzərə alaraq N.Cəfərovun ön sözünü də oxucuların diqqətinə çatdırırıq.*

## ÖN SÖZ

### *Hər bir xalq*

Özünü (və bütün mürəkkəbliyi, rəngarəngliyi, irəlicədən müəyyənləşdirilməsi çox çətin olan konyukturları ilə onu əhatə edən Dünyanı!) daha ardıcıl, daha mükəmməl və tarixi yaddaş adlandırdığımız fenomeni yaradacaq qədər daha etibarlı bir şəkildə məhz öz Dahiləri vasitəsilə dərk edir. Azərbaycan xalqı hər cəhətdən zəngin (və möhtəşəm) tarixinin bizə məlum ən qədim dövrlərindən başlayaraq elə böyük şəxsiyyətlər yetirmişdir ki, bugünkü həyatımızı onların cahanşümul Əsərlərindən kənarda təsəvvür etmək, sadəcə olaraq, mümkün deyil: Dədə Qorqud, Atabəylər, Nizami, Nəsimi, Şah İsmayıl Xətai, Füzuli, Nadir şah, Vaqif, Mirzə Fətəli Axundzadə, Sabir, Cəlil Məmmədquluzadə, Cavid, Cümhuriyyət liderləri, Nəriman Nərimanov, Səməd Vurğun, Heydər Əliyev...

***"Heydər Əliyev və Nizami Gəncəvi" monoqrafiyasının müəllifi, pedaqoq-alim Bayram Apoyev iki azərbaycanlı dahinin, zamanca nə qədər uzaq məsafədə qərar tutmuş olsalar da, mənsub olduqları xalq qarşısındakı tarixi xidmətlərini müqayisə edərkən, əslində, milli ideya - mənəvi varisliyin bütöv bir mənzərəsini yaratmaq təcrübəsi vermiş, hər iki dahi haqqında ümumən dünyada mövcud olan analitik təsəvvürləri həm miqyası, təfsilatı, həm də metodoloji dəqiqliyi, sistemliliyi ilə araşdıraraq, Nizamidən Heydər Əliyevə qədər gələn dünyagörüşü, ideal yaradıcılıq enerjisi axınının eyni bir mənbədən nəşət etdiyini əsaslı faktlarla göstərə bilmişdir.***

Monoqrafiyanın olduqca səlis quruluşu müəllifə imkan verir ki, öz fikirlərini, mülahizələrini yerli-yerində təqdim etməklə çox əhəmiyyətli ümumiləşdirmələr aparsın.

Birinci fəsildə söhbət "dahi şairi dünyada tanıdan dahi dövlət xadimi"ndən gedir.

O dövlət xadimindən ki, elmin, ədəbiyyatın, incəsənətin mənəvi-mədəni tərəqqidəki rolunu, sadəcə, yüksək qiymətləndirməklə kifayətlənməmiş, lideri olduğu xalqın elm, ədəbiyyat, incəsənət klassiklərinin həm ölkədə, həm də dünyada təbliği sahəsində son dərəcə böyük intellekt (və əmək) sərf etməklə müstəqil Azərbaycan dövlətinin mədəniyyət siyasətində tarixi bir ənənənin əsasını qoymuşdur. Və həmin ənənəni Ümummilli liderdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva müasir dövrün çağırışlarına uyğun olaraq daha da inkişaf etdirmişlər.

### *Nizami irsi,*

əlbəttə, azərbaycançılıq məfkurəsinin mötəbər qaynaqlarından biri kimi, həmişə diqqət mərkəzində olmağa ona görə daha çox layiqdir ki, bu dahi şəxsiyyət tərcümeyi-halı etibarilə bilavasitə Azərbaycanı (çox sevdiyi Gəncə torpağını!) təmsil etsə də, idrakının, ideallarının (və humanizminin!) hüdudu yoxdur.

Bu hüdudsuzluq, eyni zamanda azərbaycanlı intellektinin ümumbəşəri təzahürünün dərin tarixi köklərindən xəbər verir.

Və Ümummilli liderin monoqrafiyada sitat gətirilmiş bu fikri, heç şübhəsiz, həm Nizami Gəncəvi, həm də Heydər Əliyev dühası arasındakı sələf-xələflik münasibətinin hansı məcrada, hansı səmimiyyətdə baş vermiş olduğunun birbaşa ifadəsidir: "Mən qürur hissi keçirirəm ki, Nizaminin yolunda az iş görməmişəm.

Onun xatirəsini əbədiləşdirmək, irsinin daha da təbliğ olunması, yayılması üçün, kitablarının nəşri üçün çox iş görmüşəm.

Buna görə də mən Nizami Gəncəvinin qarşısında öz borcumu yerinə yetirmişəm. Ancaq mən hesab edirəm ki, bütün borclarımı qaytarmamışam. Mən hələ çox illər yaşayacağam və bütün borclarımı da yerinə yetirəcəyəm".

***Əlbəttə, dahilər bir-birini adi insanlara müyəssər olmayacaq səviyyədə dərk edirlər, ancaq adi insanlar üçün də anlamaq çətin deyil ki, Ümummilli lider son cümləsində, eyni zamanda xalqına, xüsusilə onun ziyalılarına vəsiyyət edirdi ki, onun işini davam etdirib mənsub olduqları***




***millətin Nizami kimi mütəfəkkirinə həmişə ehtiram göstərsinlər. Və bu ehtiramın ən böyük təzahürlərindən biri akademik Nərgiz Paşayevanın dünyanın ən qədim elm mərkəzlərindən olan Oksford Universitetində yaratdığı "Nizami Gəncəvi adına Azərbaycanşünaslıq və Qafqazşünaslıq Elmi Mərkəzi" oldu ki, həmin Mərkəz nizamişünaslığın (və ümumən azərbaycanşünaslığın) dünya miqyasında təbliği sahəsində artıq böyük uğurlara imza atmışdır.***

Monoqrafiyanın ikinci fəsli hər iki azərbaycanlı dahinin dünya ictimai fikrindəki mövqeyindən bəhs edir. Bu barədə həm çox yazılmış, həm də çox deyilmişdir.

Ancaq Bayram Apoyev bir araşdırıcı təmkini, peşəkarlığı ilə ən səciyyəvi məqamlara diqqət yetirməklə, istər XII əsrin "sosial ədalət" idealisti, istərsə də XX əsrin sonu - XXI əsrin əvvəllərinin "sosial ədalət" realisti haqqındakı beynəlxalq təsəvvürlərin ümumi (və obyektiv!) panoramını təqdim etmişdir. Və verilən əməklərdən də aydın görünür ki, "Azərbaycanı dünyada tanıdan və dünyanın tanıdığı iki dahi"nin həm idealistliyində, həm də realistliyində elə ortaq xüsusiyyətlər var ki, milliliklə ümumbəşəriliyin "dialoq"una xidmət etməklə dünyada harmoniya axtarışında yeni imkanlar açır. Bir dahinin XII əsrdə söylədiyi "qoy ədalət zəfər çalsın" sözləri XX əsrdə başqa bir dahinin əməllərilə həyata keçirilir ki, bunun ən parlaq təzahürü Azərbaycan xalqının əsrlərlə həsrətində olduğu müstəqil Azərbaycan Respublikasıdır.

### *Üçüncü fəsil*

"tolerantlıq və multikulturalizmin iki alovlu carçısı"nı tərənnüm edir.

Monoqrafiya müəllifi tamamilə haqlıdır ki, Azərbaycan Respublikasının Prezidenti, dünya azərbaycanlılarının lideri İlham Əliyevin müxtəlif ali məclislərdə xatırlatdığı "multikulturalizm Azərbaycanda dövlət siyasəti və bizim həyat tərzimizdir" müddəası artıq beynəlxalq səviyyədə məşhur aforizmə çevrilmişdir.

Və bu aforizmin ideya-metodoloji əsasında, heç şübhəsiz, "həyat tərzimiz"lə yanaşı, Nizamidən Heydər Əliyevə qədərki Azərbaycan mütəfəkkirlərinin heç vaxt antiinsani konyukturlara güzəştə getməyən qranit kimi möhkəm humanizmi dayanır.

Monoqrafiyanın dördüncü fəslində müəllif olduqca həssas bir mövzuya toxunur: həm Azərbaycan xalqının öz dahilərinə sonsuz məhəbbətindən, həm də dünya xalqlarının onlara ehtiramından danışır. İstər Nizaminin, istərsə də Heydər Əliyevin xatirəsini əbədiləşdirmək üçün Azərbaycanın, ümumən dünyanın xəritəsini bəzəyən "söz abidələri" - toponimlər həmin məhəbbətin, ehtiramın elə bir ifadəsidir ki, hər iki dahinin adını əsrlər boyu yaşadacaq, hər yeni nəslin bu ideallar əsasında formalaşmasına zəmin olacaqdır... Təsadüfi deyil ki, Azərbaycanın qədim yer adlarının bir çoxu müasir dövrə məhz dahi şairin "Xəmsə"si ilə gəlib çatmışdır (və odur ki monoqrafiya müəllifi həmin adları da "Nizami Gəncəvi yaradıcılığında toponimlər" başlığı altında araşdırır). Və o da təsadüfi deyildi ki, Ümummilli lider ölkədə yer adlarının həm qorunub saxlanılmasına, həm də yeniləri yaranarkən xalqın milli tarixi simasının əksinə xüsusi diqqət yetirirdi...

Monoqrafiyanın hər iki dahinin fikir xəzinəsindən verilmiş müdrik kəlamlarla sona çatması da o mənada çox rəmzi təsir bağışlayır ki, dühaların tərcümeyi-halında yalnız bir tarix olur, o da dünyaya gəlmək tarixidir. Onlar dünyadan heç vaxt getmirlər.

**Kitabın elmi redaktoru, görkəmli alimimiz Mübariz Yusifovla, heç şübhəsiz, razılaşmaq lazım gəlir ki, Bayram Apoyevin əsəri nə qədər peşəkar zəhmətin məhsuludursa, o qədər də yüksək vətəndaş təəssübkeşliyinin nümunəsidir.**

---

## *Yoluxma sayının sürətlə artması riski çoxaldır*

**Demək olar ki, hər gün COVİD-19-a yoluxma sayı ilə bağlı rəqəmlər yüksəlir, rekord göstərici qeydə alınır, lakin rekordu belə sürətlə yeniləməyimiz heç də yaxşı hal deyil.**

**Bunu tibb üzrə fəlsəfə doktoru Yazgül Abdiyeva deyib.**

**Onun sözlərinə görə, bu gün 1364 nəfərdə COVİD-19-a yeni yoluxma halı aşkarlanıb.**

**Son günlərdə müşahidə edilən tendensiyaya uyğun olaraq, bu gün də sağalan xəstələrin sayı 768 nəfər olmaqla, yeni yoluxmadan 2 dəfəyə yaxın az olub.**

**Belə bir tendensiyanın davam etməsi isə onu göstərir ki, ölkədə koronavirus baxımından sanitar-epidemioloji vəziyyət nəzarətdən çıxa bilər:**

**"Hazırda ölkədə sanitar-epidemioloji vəziyyətə nəzarət edildiyini deyə bilərik. Ancaq yoluxma sayındakı artım belə davam edərsə, vəziyyət çətin olar. Hər kəs bu suala cavab verməyə və vəziyyəti düzəltmək üçün əlindən gələni etməyə çalışmalıdır. Biz dəfələrlə bildirmişik ki, indi ölkəmiz üçün ən həssas dönəmdir. Vətən müharibəsinin aparıldığı indiki dönəmdə insanlar yalnız özlərini deyil, torpağımız uğrunda döyüşən əsgərlərmizi də nəzərə almalıdırlar.**

**Yoluxma sayının belə sürətlə artması bu virusun cəbhədəki əsgərlərimizə gedib çatması riskini də çoxaldır".**

**Y.Abdiyeva qeyd edib ki, virusdan qorunmaq üçün hər kəsin üzərinə düşən iş yalnız məsuliyyətli olaraq, qaydalara əməl etməkdir:**

**"Biz eyni zamanda qaydalara əməl etməyənləri də qınamalıyıq.**

**Bunu hər birimiz edəriksə, qaydalara əməl etməyənlər, onu pozanlar gələn dəfə ona əməl etməyə çalışacaqlar. Beləliklə də cəmiyyətdə virusla bağlı davranış normalarımız daha da təkmilləşəcək".**



Çingiz Ənvəroğlu

# Qanmazı belə qandırarlar

**Mən uşaq olanda- 1960-cı illərdə belə bir əhvalat eşitmişdim. Həmin illərdə Şəkidə 180-200 baş erməni yaşayırdı. Onlar şəhərdə özlərini çox sərbəst və ərköyün aparırdılar. Hamısı yaxşı pul qazanan işlərdə və yüksək vəzifələrdə otururdu. Onların ən "ağıllısı"yekəxana, yekəpər bir erməni Şəki bazarında kələm, xiyar tutması satırdı. Günlərin birində bir şəkili oğlan da bazara gəlib kələm, xiyar tutması satan həmin o, yekəxana, yekəpər ermənidən iki-üç metr aralıda zoğal qurusu satırmiş. O, yekəxana, yekəpər erməni dığası gəlib şəkili oğlanın satmaq üçün piştaxtanın üstünə qoduğu torbadan bir ovuc zoğal qurusu götürür və gedib öz yerində durub başlayır bir- bir yeməyə. Yediyi zoğal qurularının tumunu da atır şəkili oğlanın başına. O, birinci tumu şəkili oğlanın başına atanda oğlan diksinib sual dolu nəzərlərlə sırtıq- sırtıq irişən yekəxana, yekəpər erməniyə baxır və onun cavabını vermək üçün oturduğu yerdən ayağa qalxanda yanındakı yaşlı Azərbaycanlı kişi onun qolundan tutur və qulağına deyir ki, ay oğul, ona baş qoşma, sən ona nə isə eləsən gəlib hamımızı tutub apararlar milisə(yəni indiki polisə).**

**İkinci, üçüncü tum da başına dəyəndə şəkili oğlan yenə əsəbi vəziyyətdə ayağa qalxır və yenə yanında malını satan yaşlı kişi onun qolundan tutub yerinə oturdur.**

**Bundan sonra şəkili oğlan nə fikirləşirsə heç dönüb həmin o, yekəxana, yekəpər erməni tərəfə baxmır. Həyasız erməni də əlindəki zoğal qurusu qurtaran kimi şəkili oğlana baxıb, irişə- irişə gəlib bir ovuc da götürüb yerinə keçir və yediyi zoğal qurusunun tumlarını yenə də şəkili oğlanın başına atır. Bu minvalla o, yekəxana, yekəpər erməni gün ərzində pulsuz- parasız 7-8 ovuc zoğal qurusu yeyir və tuminu şəkili oğlanın başına atır. Sən demə şəkili oğlan ermənin onun başına atdığı tumları yığırmış. Malını satıb qurtaranda piştaxtanın altina yığdığı zoğal qurusunun başına vurulan tumlarini tərəziyə qoyur və görür ki, təxminən yarım kiloqramdır. Şəkili oğlan tərəzinin qarşı tərəfindəki yarım kiloqramlıq daşı götürüb vurur həmin o, yekəxana, yekəpər ermənin başına. Həmin erməni tir-tap uzanır yerə. Şəkili oğlan səhərdən onu sakitləşdirən yaşlı kişiyə baxıb, ona bir göz vurub heçnə olmamış kimi bazardan çıxıb gedir. Onun yanındakı yaşlı kişi şəkili oğlanın dalınca gülə-gülə baxıb öz-özünə deyir: - Ədə, bu kişi oğlan imiş, sənə ananın südü, atanın çörəyi halal olsun! Bax qanmazı belə qandırarlar! Bazarda aləm qarışır bir- birinə. Milislər tökülüb gəlirlər bazara və həmin ərazi mühasirəyə alınır. Orada mal satan adamlar sorğu- suala cəlb olunur. Şəkidə nə qədər erməni var idisə hamısı qarğalar kimi yığışırlar bazara. Ha vurnuxurlar, ha axtarırlar bazarda zoğal qurusu satan oğlanı tapa bilmirlər. Sonra uzun illər bazarda zoğal qurusu satan oğlanın yanında öz malını satan Azərbaycanlı yaşlı kişi bu əhvalatı çoxlarına danışır və həmişə də axırda deyirdi ki, axır ki, bu bazara da bir kişi oğlan gəldi. Həmin o, yekəxana, yekəpər erməni bazarda hamını bezdirmişdi.**

**Sonralar kəlləsinə dəyən tərəzi daşının zərbəsindən həmin ermənin başında bəd xassəli şiş əmələ gəlib. O, yzun müddət müalicələr alsa da faydası olmadı, öldü və bütün bazar adamlarının həmin yekəxana, yekəpər ermənidən canı qurtardı.**

**Bu əhvalat nə üçün indi yadıma düşdü, səbəbini sizə anladım. 27 il olur ki, Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağda birinci muharibə dayandırılıb və diplomatik danışıqlar başlandığına görə atəşkəs elan edilib.**

**Amma erməni dığaları hər gün atəşkəs qaydalarını yüz dəfədən də çox pozurdular. Bütün dünya dövlətləri, BMT, Avropa ittifaqı, danışıqlara məsuliyyətli Minsk Qurupu və başqa beynəlxalq qurumlar bu danışıqları gülə- gülə davam etdirirdi və heç bir nəticə hasil olmurdu. 27 il atəşkəsi pozan və Azərbaycandan başqa heç kim tərəfindən məzəmmət olunmayan ərköyün ermənilər cəsarətlənib yeni ərazilər zəpt etmək üçün 27 Sentyabr 2020-ci ildə yenidən Azərbaycan ərazisinə hücum etdilər. Azərbaycanlılar da şəkili oğlan zoğal qurusu tumlarını bir yerə yığıb axırda bir dəfədə erməninin başına vurduğu kimi 1994-cü ildə danışıqlar üçün razılaşdırılmış atəşkəs dövründən indiyə kimi bizə atdıqları irili-xırdalı atəşkəs pozuntusunun cavabını verməyə başladılar. Burada qeyri- adi nə var ki, indi bir çox Dünya dövlətləri erməniyə himayədarlıq etmək istəyirlər. Bu 35 günlük döyüşlərdə Azərbaycan Ordusu ermənin başına elə bir zərbə vurdu ki, inşaallah onların da başında bəd xassəli şiş əmələ gələr və bütün dünya xalqlarının bu nankor faşistlərdən canı qurtarar. Sağlıq olsun o günü də görərik və onda dünyanın mütərəqqi fikirli insanları bir ağızdan deyəcəklər ki, bütün dünyanı yeni faşizm bəlasından xilas edən Azərbaycanın müzəffər ordusuna və onun Ali Baş Komandanına eşq olsun!**

Şəki



Əfsanə Şükürova

# Azərbaycan gəncliyi tarixi anlara şahidlik edir

**Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə özünün dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır. Artıq bir aydan çoxdur ki, davam edən müharibə nəinki tarixi və əzəli torpaqlarımızın azad olunması ilə nəticələnir, ölkədə xalq-iqtidar, xalq-ordu birliyini, həmrəyliyini daha da gücləndirir.**

Həqiqətən də son bir ayda Azərbaycan gəncliyi, Azərbaycan xalqı tarixi anlara şahidlik etdi. Dünya döyüş tarixinə yeni mərhələ kimi yazılan Qarabağ savaşı bəşəriyyətə xalqımızın və onun rəhbərinin simasında işğalçının başından necə vurmaq lazım olduğunu göstərdi.

### *Bəzən müharibə tarixində*

5-ci nəsil, bəzən isə dron savaşlarının önə çıxdığı, üstünlük təşkil etdiyi yeni mərhələ kimi xarakterizə edilən bu azadlıq savaşımızda heç şübhəsiz ki, əsas sözü canıyla, qanıyla azad edilən torpaqlara bayraq sancan Azərbaycan əsgəri deyir... Təbii ki, yaxşı sərkərdə, yaxşı rəhbər olmasa yaxşı ordu və əsgər də formalaşmaz! Bu mənada xalqımızın uzun illərin təcrübəsinə malik olan bir liderə-cənab Prezidentə güvənməsi, onun istənilən döyüş əmrinə müsəlləh əsgər kimi hazır olduğunu göstərməsi müharibədəki uğurlarımızın səbəblərindən biridir. Amma yuxarıda da qeyd etdiyim kimi əsas amil uğurlu sərkərdə, güclü liderə sahib olmaqdır.

Təsadüfi deyil ki, Ali Baş Komandan İlham Əliyev bir necə cəbhədə lider kimi önə çıxaraq düşmənlə mübarizə aparır, 30 ildən sonra arzusunda olduğumuz zəfərlərin sıralanmasında əsas rol oynayır. Cənab Prezident yalnız Ali Baş Komandan kimi orduya birbaşa əmr və rəhbərlik etməklə döyüş meydanında deyil, paralel olaraq informasiya savaşında da çox ciddi mübarizə aparır.

Bu gün dünyamız sosiallaşma, sosial media dövrünü yaşayır. İstənilən yanlış informasiya, "fake" xəbər sənin Vətən müharibəsi kimi haqq işində, haqq davanda manеə ola bilər, uğurlarının qarşısında süni sədd çəkər. Ona görə də informasiya savaşında da döyüş meydanındakı kimi maksimum aktiv olmalı və daha uğurlu fəaliyyət göstərməlisən ki, ordunun əldə etdiyi uğurlarla paralel olaraq media arenasında da nailiyyətlər qazanıb haqq sözünü dünyaya operativ və səlist şəkildə çatdıra biləsən. Bu mənada Prezidentin son bir ayda yorulmadan dünyanın aparıcı TV və xəbər agentliklərinə uğurlu şəkildə müsahibələr verməsi, Paşinyanla qatıldığı eyni verilişdə onu sözün həqiqi mənasında susdurması biz gəncləri qürurlandırmaya bilməzdi. Gənclərimiz bundan ruhlanaraq sosial mediada aktivlik göstərir, ön cəbhədə olan həmyaşıdlarını, ümumilikdə hərbçilərini arxa cəbhədə- informasiya savaşında aktivliklə-ri ilə tək qoymamağa çalışırlar. Çünki hər iki cəbhədə olan mübarizə paralel şəkildə getməlidir. Bunun ən yaxşı nümunəsini Ali Baş Komandan yaratdı! O həm orduya uğurla rəhbərlik edib güc hesabına savaşdı, həm də öz intellektuallı, savad və təcrübəsinə arxalanaraq informasiya savaşında ön plana çıxdı və bu fəaliyyətlərə də uğurla davam edir...

Azərbaycan gəncləri həqiqətən də bu tarixi günlərin, tarixi zəfərlərin, nəinki region, ümumilikdə dünya üçün mühüm əhəmiyyətə malik tarixi dəyişikliklərin bir hissəsi olmaqdan fəxr hiss keçirir. Bəlkə də dünyada elə bir nümunə yoxdur ki, Azərbaycan kimi gənc, müstəqil bir ölkə beynəlxalq hüququn, nüfuzlu təşkilatların bacarmadığı işğalçı- çox ciddi erməni problemi ilə bacardı və özü öz tarixi məsələsini ordusu hesabına həll etdi. İşğala son qoymaq üçün uğurlarının da ardını gətirməkdə davam edir.

### *Bütün bu uğurlarda*

***da şübhəsiz ki, Ali Baş Komandanın əmrində olan müzəffər ordumuzun hazırlıqlı olması, ən müasir hərbi avadanlıqlar, maddi texniki baza ilə təmin edilməsi mühüm rol oynayır. Hər nə qədər bu sadalanan mühüm amillər, düşməndən üstünlüyümüzü birəbeş artıran nüanslar mühüm rol oynasa da insan faktoru- Vətənini sevən, ondan ötrü hər zaman canından keçməyə hazır olan əsgər amili də mühüm rol oynayır. Sirr deyil ki, bütün sahələrdə olduğu kimi ordu quruculuğu və hazırkı döyüşən heyətin uğurlarının əldə edilməsində gənclərin misilsiz rolu var. Ordumuzun böyük əksəriyyətinin gənclərdən formalaşması təsadüfi deyil. Bu dövlət, bu xalq gənclər ordusunun qəhrəmanlıqları, döyüş meydanında göstərdiyi şücaətləri hesabına 30 ildir ki, dünya güclərinin həll edə bilmədiyi bir problemin qısa zamanda həllinə şahidlik edir.***

Bu gün ön cəbhədə kimliyindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşına-müəllim, həkim, idmançı, media nümayəndəsi və s. peşə sahiblərinə ictimai və siyasi həyatda aktiv olmuş şəxslərə rast gəlmək olar.

### *Bu mənada*

***"İrəli" İctimai Birliyinin sədrinin də döyüşlər başlayan ilk günlərdə əlinə silah götürüb torpaqların azad olunmasında iştirak etməsi təqdir edilməlidir. Arxa cəbhədə çalışanlardan tutmuş, ön cəbhədə mətin addımlarla irəliləyən peşəkar ordumuza qədər bütün xalq, bütün cəmiyyətimiz çəkici bir nöqtəyə vurur. Hamı "Qarabağ Azərbaycandır" deyib uğurlu döyüşlər, torpaqların azad edilməsi üçün əlindən gələni edir.***

Həqiqətən də Ali Baş Komandanın illərlə qurub gücləndirdiyi Azərbaycan Ordusunun tarixi zəfərləri ard-arda gətirməsini böyük xalq kimi qürur hissi ilə izləyirik. Bəli, biz bütün dünyaya yalnız güclü dövlət olduğumuzu deyil, genində döyüş ruhu yatan, haqsızlığa heç vaxt susmayacaq bir böyük xalq olduğumuzu sübut etdik. Cənab Prezidentin böyük əməyi və müdrikliyi hesabına güclənmiş bu ordudan zatən belə uğur və rəşadətli addımlar gözlənilməli idi. Çünki dünyanın 50 ən güclü orduları sırasına daxil olan Azərbaycan Ordusu bircə əmri gözləyirdi ki, öz dədə-baba torpaqlarını azad etsin!

Artıq düşməndən təmizlənən torpaqlara qayıdış planları, layihələri də hazırlanır. Bu gün bir qarış torpaq belə düşmən tapdağı altında qalmayacaq və bütün xalq, cəmiyyətin aparıcı qüvvəsi olan biz gənclər də buna əminik. Öz müzəffər yürüşünü davam etdirən Azərbaycan Ordusunun əsas hissəsini təşkil edən gənclərimiz son ana qədər döyüşəcəklər və işğalçıların tarixi torpaqlarımızdan tam şəkildə qovulmasını təmin edəcəklər. Ali Baş Komandanın dediyi kimi müzəffər ordumuz düşmənə dərs verir və öz uğurlu əməliyyatları ilə Azərbaycan xalqını sevindirir, bundan sonra da sözlə ifadəsi mümkün olmayan hislər yaşadacaq. Azərbaycan xalqı öz Prezidentinə, onun komandanlığı ilə qələbələr qazanan rəşadətli Ordusuna inanır və yaxın günlərdə üçrəngli bayrağımızın Xankəndi, Şuşa və digər tarixi yaşayış məskənlərimizin üzərində dalğalanacağına əmindir. Xilaskarlıq missiyasını uğurla yerinə yetirən ordumuzu alqışlayır, düşmənin tam şəkildə küreyinin tezliklə yerə vurulmasını arzulayırıq.

**Eşq Olsun Azərbaycan Ordusuna, Qarabağ Azərbaycandır!**



Musa Ələkbərli

## İndi sən hamınınsan

*Ordumuzun Ali Baş Komandanı cənab İlham Əliyevə*

Ali Baş Komandanım,
İndi sən hamınınsan.
Rəssam fırçasınınsan,
Şair ilhamınınsan.

Bütün dünya eşidir
İndi qalib səsini.
Adına ünvanlayır
Bəstəkar bəstəsini.

İndi xalqın yanında
İki deyil bir sözün.
Qarabağdan başlayır
Ali sözün, pir sözün.

Adına məktub gəlir
Aranından, dağından.
Başı uca çıxırsan
Tarixin sınağından!

O məktubun hər biri
Qarabağa sevgidi.
Bu ağrı çox uzandı,
Bu döyüş çox ləngidi!

Otuz il sən çalışıb
Qalib ordu yetirdin.
Yağıların işini
Otuz günə bitirdin!

Yenilməz güc sahibi,
Məğrur bir sərkərdəsən.
Ən uca məqamdasan,
Ən möhtəşəm yerdəsən!

Sənin Qarabağ sevgin,
Sənin Vətən istəyin.
Vurğusuna dönübdür
Yurdunda hər ürəyin!

Xalqın bir yumruq kimi
Cani-dildən birləşib.
Yerişi vüqarlanıb,
Addımı mətinləşib!

Vətənimdə hər kəsin
Sənə dikilib gözü.
Səndən gözləyir ancaq
Açıq sözü, şax sözü.

Bu torpaq başdan-başa
Qələbə soraqlıdı.
Bu gün sözün-söhbətin
Hər kəsə maraqlıdı!

İndi sən hamınınsan,
İndi hamı sənindi.
Sarsılmaz birliyimiz
Bu şanlı Vətənindi!

## Gəncə yarasına Şuşa dərmandı

Bu gecə od tutdu Gəncə torpağı,
Cavad xan ruhuyla hərəsan oldu.
Dəhşətə, vəhşətə qol qoydu yağı,
Yuxuda can verən neçə can oldu.

Mülki əhaliyə tuşlandı zərbə,
Mülkü viran oldu neçə soydaşın.
Dam, divar qoymadı saçılan qəlpə,
Külü göydə uçdu torpağın, daşın.

Yermi var, yurdmu var çıxıb gedələr,
Nifrətdə boğulur mənfur varlığı.
Döyüş meydanında məğlub gədələr
"Qələbə" saydılar bu barbarlığı.

Xocalı yarası açılan xalqın,
Qəlbində bir saysız ağrı-acı var.
Qəzəbi tufantək saçılan xalqın
Köklü intiqama ehtiyacı var!

Nizami qəbrinə tuşlandı zərbə,
Kor dünya bu səsdən indi kar oldu.
Xalqımın səbrinə tuşlandı zərbə
Günahsız qanlara səbəbkar oldu!

Dinc xalqa yönəlib raket hədəsi,
Bu hədə hər kəsi ayıltmalıdı.
Təcili bu yurdun Laçın zirvəsi,
Şuşa ucalığı qayıtmalıdır!

Ağzına su alıb BMT, ATƏT,
Qırılan bizlərik, tərpənmir tükü.
Şərin başlatdığı böhtan, ya qeybət
Çətin ki, haqq yoldan sapdıra türkü!

Hələ neçə qanlı döyüş var öndə,
Sonadək vuruşmaq şanlı fərmandı.
Gəncə yarasına bu ağır gündə
Yurdun şah vüqarı Şuşa dərmandı!
Kəlbəcər Laçınla qoşa dərmandı!!!

## Zəfər ünvanlı şəhidim...

Öyünc, qürur yerimizdi,
Sənin tökülən qanın.
Torpağımı xilas etdi
Torpağa dönən canın.
Namusu, şərəfisən
Bu gün Azərbaycanın.
Şəhidim, şanlı şəhidim,
Zəfər ünvanlı şəhidim.

Sən zülməti qova-qova
Dan yeritək söküldün.
Ölü yurda nəfəs verib
Bayrağıma büküldün.
Otuz ilin yarasını
Sağaltdın otuz günə.
Sadiq oldun bu vətənin
Hər əmrinə, hökmünə.
Qarabağın qara bəxti
Şükür çıxır ağ günə.
Şəhidim, şanlı şəhidim,
Zəfər ünvanlı şəhidim.

Keçdin cavan həyatından
Həyat verdin yurduna.
Qələbəni qanla yazdın,
Ənam etdin orduna.
"Hücum" deyib qanadlandın,
Öndə oldun həmişə.
Qorxu-hürkü bilmədiyin
Gündə oldun həmişə.
Qartal kimi qanadlanıb
Kəsdin yağı üstünü.
Qoy pir deyib qucaqlayım
Heykəlini, büstünü!
Şəhidim, şanlı şəhidim,
Zəfər ünvanlı şəhidim.

Dilimizdə ən yaralı
Bayatısan, ağısan.
Anaların göz yaşısan,
Sinələrin dağısan.
Ayın bulud örtüyüsən,
Günün qürub çağısan.
O müqəddəs pak ruhunla
Qovuşmusan Allaha.
Vətənini çıxartmısan
Bir işıqlı sabaha.
Şəhidim, şanlı şəhidim,
Zəfər ünvanlı şəhidim.

Bu torpağın yarasına
Sarğı olub bədənin.
Sən ən uca məqamısan,
And yerisən Vətənin.
Hüzurunda baş əyirəm,
Diz çökürəm mən sənin.
Bütöv əsər yazmalıyıq
Yarımçıq ömrün haqda.
Ruhun Tanrı qucağında,
Nəşin qara torpaqda.
Torpaq qədər əbədisən
Şəhidim, şanlı şəhidim.
Yurdun paklıq məbədisən
Zəfər ünvanlı şəhidim!!!

## Bayraqlaşan Azərbaycan

İlhamıma qanad verir,
Yurdumun bayraq sevgisi.
Bu sevgiyə həyat verir,
Ordumun torpaq sevgisi.

Yerin-göyün tələbiylə,
Dindi Koroğlu təbiylə.
Cilovlanmış qəzəbiylə
Aşıb-daşan Azərbaycan!

Otuz il yol qət elədi,
Sülh naminə cəhd elədi.
Sonda zirvə fəth elədi
Dağlar aşan Azərbaycan.

Yağı solunda, sağında,
Ərdi namərd qabağında.
Döyüşür öz torpağında
Haqqa nişan Azərbaycan.

Heyfin qara şərdə qalmaz,
Bir qalmışdı, bir də qalmaz.
Heç bir zaman yerdə qalmaz
Günahsız qan, Azərbaycan!

Göstər qılınc kəsərini,
Yarat yeni "əsər"ini.
Ey şərəfli zəfərini
Sülhə qoşan Azərbaycan!

Al heyfini, düşməndən al,
Qaniçənə qələbə çal!
Oba-oba, mahal-mahal
Bayraqlaşan Azərbaycan!

Var gücünü elə cəmlə,
Zəfər yazsın qoy son həmlə.
Yenilməzsən Türkiyəmlə
Qoşalaşan Azərbaycan!

Yarat zəfər ehtişamı,
İlhamlandır sən İlhamı!
Bir ağızdan desin hamı:
Canımsan can, Azərbaycan!
Qoy dünyaya örnək olsun
Bu şərəf-şan, Azərbaycan!!!

## Eyni tərəziyə qoyurlar bizi

Mən də döyüşürəm, sən də, məlumdu,
Ölüb itənlərin bilinmir sayı.
Mən atan silahlar - mənim pulumdu,
Sən atan silahlar pulsuz, havayı...

İndi sən onları atıb qaçırsan,
Döyüş meydanında tükənib tabın.
Sivil insanlara atəş açırsan,
Bir gün sorulacaq bunun hesabı!

İşğalçı işğala məruz qalanla,
İndi bir tutulur, mən necə dözüm?!
Sənin uydurduğun saysız yalanla
Yenilir, danılır haqqım,haqq sözüm!

Eyni tərəziyə qoyurlar bizi,
Bir gözü əyilən tərəzidir bu.
Günah pərsəngindən qızarmır üzü,
Zamanın əxlaqsız qərəzidir bu!

Biz geri aldıqca doğma torpağı,
"İntiqam" hissiylə kükrəyir qanın.
"Dənizdən dənizə" yurd gəzən yağı,
Səbri dəniz deyil Azərbaycanın!!!

Baş vursaq tarixə, dönsək keçmişə,
Üstünü toz basmış sənədlər qalır.
Dünya birtərəfli baxdıqca işə
İnsanlıq şərəfi enir, alçalır!

Sayı yox sinəmə çəkdiyin dağın,
Yalan "soyqırım"a bir son ver, axır...
Xocalı yaramda yanan ocağın
Tüstüsü hələ də başımdan çıxır.

Eyni tərəziyə qoyurlar bizi,
Bir gözü əyilən tərəzidir bu!
Qanlı terrorundan qızarmır üzü,
Sağalmaz erməni mərəzidir bu!

Pərsəngi yerinə qoymasa dünya
Bu dava heç zaman sovuşan deyil.
Bizim fərqimizi duymasa dünya
Haqqa, ədalətə qovuşan deyil!

## Döyüş Qarabağdadı

Mərmi yağdırırsan hər gün başıma
Namərd, doy gələsi mərdim var sənə.
Sülh dedim yeddi şərt qoydun qarşıma,
İndi bircə dənə şərtim var sənə!

Rədd ol Vətənimdən, çəkil yurdumdan,
Daha izin-tozun burda qalmasın.
Zorla öz "pay"ını alma ordumdan,
Açma qapısını kədərin, yasın.

Şərəfi tapdayıb, namusu yeyib
Dünyayla bu qədər ara vurmusan.
Timsah göz yaşınla "soyqırım" deyib
Mənə Xocalıtək yara vurmusan!

Bir gün "yox" deyəcək, dünya sənə "yox"
Sağalar bu yara, səngiyər bu dərd.
Sən bu zərbələrlə təkcə mənə yox,
Bütün insanlığa yağısan, namərd!

Cəbhədən qaçırsan, aranda, dağda,
Bütün sərhədboyu cəbhə açırsan.
Döyüşü uduzub sən Qarabağda,
Gəncəyə, Tərtərə ölüm saçırsan!

Cavab alacaqsan bu barbarlığa,
Atdığın bu daşlar özünə dəyir.
Tanrı xainliyə, gözüdarlığa
Torlaşan göz verir işıq verməyir.

Çöküb yaddaşına qan qaranlığı,
İlahi işıqdan məhrum olmusan.
Qaç get, çıxış yolu sən qaranlığı,
İndi bu qaçışa məhkum olmusan!

Əyişib zamanla, döyüşüb haqla,
Bir alçaq, şərəfsiz "tarix" yazırsan.
Dinc kəndi, şəhəri bombalamaqla
Qəbrini daha da dərin qazırsan.

Qələbə gözləyir xalqım haçandı,
Bu sözə köklənib doğması, yadı.
Yaxşı bil "Qarabağ Azərbaycandı!"
Son, qəti döyüş də Qarabağdadı!

## Torpaq sevinci

*Qələm dostum Yasif Nəsirlinin doğma kəndi Kavdar işğaldan azad olunub*

Sozalan gözlərə işıq gətirdi
Hədəfi düz seçən çaxmaq sevinci.
Vətən, doğurdanmı qismətdi bizə
Sənə bütövlükdə baxmaq sevinci?!

Qələbə! - qəlblərin gərilən simi,
Ordumuz axır ki, qırdı tilsimi.
Gəldi şairlərin pərvanə kimi
Özünü odlara yaxmaq sevinci.

Şad xəbər qaldırdı göyün qatına,
Nələri bəxş etdi gör həyatına?!
Minib arzuların köhlən atına
Birbaş Cəbrayıla çapmaq sevinci.

Qurbanlar vermişik peşinə torpağın,
Verməz əvəzini heç nə torpağın!
İlahi, nə xoşdur təşnə torpağın
Bulaqtək canına hopmaq sevinci!

Doğma yurd çağırır, ayrı çağrı yox,
Gördünmü işğalın, qəsbin axırı yox?!
Vətən ağrısından ağır ağrı yox
Çatdı bu ağrıdan qopmaq sevinci.

Könül intizarda, ürək təlaşda...
Nə qədər fikirlər dolanır başda.
Şükür, qismət oldu siz bu yaşda
Ən ağır itkini tapmaq sevinci!

# "Səsinizi qoruyun, Cıdır düzündə lazım olacaq"

**Bu sözləri bizimlə söhbətində məktəbli Səməd Novruzov söylədi.Tanışlıq üçün deyək ki, o, 2003-cü ildə Bakı şəhərində ziyalı, çox mütərəqqi düşüncəli valideynləri olan bir ailədə dünyanı tanıyıb.. Əslən şuşalıdır. Atası Əbülqasım müəllim Qarabağın, o cümlədən də Şuşanın idman tarixini araşdıran və maraqlı kitabları ilə tanınan ilk tədqiqatçıdır. Anası çox alicənab, həssas bir qadındır. Qaçqınlıq və məcburi köçkünlük həyatı yaşan bu ailədə demokratik ruh, vətənə bağlılıq, vətənpərvərlik hissi çox güclüdür. Bu hisslər övladlarına valideynlərindən irsi olaraq keçib.**

Səməd Bakı şəhəri Sağlamlıq İmkanları Məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbinin Xİ sinifdə oxuyur. Şeirə, musiqiyə, teatr tamaşalarına böyük həvəsi var.

O, bir sıra özəl xüsusiyyətlərinə görə tay-tuşlarından fərqlənir. Atası Əbülqasım müəllim deyir ki, Səmədin demək olar ki, sərbəst vaxtı olmur. O, bütünlüklə oxumağa qapılır, musiqinin dilini-sirrini daha mükəmməl öyrənmək üçün axtarışlar aparır. Səmədiheç bir vəchlə öz "studiyasından" çıxarmaq mümkün deyil. O, polad iradəyə, dəmir düşüncəyə malikdir. Başladığı işi yarıda saxlamağı sevmir. Əbülqasım müəllim onu da deyir ki, Səməd çox qabiliyyətli vokalist olmaqla bərabər, həm də güclü idmançıdır. (Əbülqasım müəllimin özü də Azərbaycanın tanınmış gimnastlarından biridir).

***Oxumaq onun üçün çox asandır. Mütəxəssislərin fikrincə onun bal kimi səsi var. Fikir və ideyalarını ortalığa qoyan bu ecazkar səsdə Qarabağın zümrüd meşələrinin, Şuşanı-nab-havasının,, Cıdır düzünün gözəlliyinin ətri duyulur. Səmədin səsində bir xısma, bir ovuc, bir qətrə də olsa Qarabağın ruhu hiss edilməkdədir. Musiqiyə qəlbən bağlandığı üçün saatlarla piano arxasında oturmaq ona xüsusi zövq verir.***



Səməd 11 yaşında ikən Türkiyənin İstanbul şəhərində keçirilən "Gülən çocuk" festivalında uğurla çıxış edib. Onun bu çıxışı mədəniyyət ustalarının, diqqətini cəlb edib. Bununla da Səmədinsəhnələrdə uğurlar seriyası başlayıb. İştirak etdiyi müsabiqələr, festivallar, konsert salonları, qazandığı mükafatlar, fəxri fərmanlar, sertfikatlar, şübhəsiz ki, bu uğurlar onun gələcəkli bir musiqiçi olduğundan xəbər verir.

Mübaliğəsiz demək olar ki, Səmədin incəsənət sahəsindəki uğurları sadalamaqla tükənmir. Biz Səmədin yalnız iki ildə-2018-2019-cu illərdə qazandığı nailiyyətləri oxucuların diqqətinə çatdırırıq:

***2018-ci il12 yanvarından martın 19-a kimi Moskva şəhərində keçirilən Beynəlxalq "TI super" layihəsinin iştirakçısı olub. Azərbaycan Gənclər fondunun maliyyə dəstəyi ilə həyata keçirilən "İnklüziv Orkestr" layihəsində iştirakına görə sertifikatqazanıb.Azərbaycanda keçirilən EKSPO beynəlxalq sərgisində görüşdə Üzeyir Hacıbəyovun "Sənsiz" romansını müvəffəqiyyətlə ifa edib və fəxri fərmana layiq görülüb.***

Heydər Əliyev Fondunun vitse prezidenti Leyla xanım Əliyevanın göstərişi ilə Heydər Əliyev Mərkəzində keçirilən MDB dövlərlərinin tədbirində çıxışı alqışlarla qarşılanıb.

Şuşa rayon İcra Hakimiyyətində keçirilən "Müstəqillik günü"nə həsr olunmuş tədbirdə böyük italyan bəstəkarı Cakomo Puccininin "Nessun doma" ariyasını, iyunun 1-də isə Uşaqların Beynəlxalq Müdafiəsi Günü Heydər Əliyev Mərkəzinin qarşısında keçirilən tədbirdə "Azərbaycan" mahnısını məharətlə ifa edib.

***"Mənim səsim mənim hüquqlarım: Parlamentdə müzakirə" mövzusunda keçirilən tədbirdə fəal iştirakıma görə UNİCEF-in Azərbaycandakı nümayəndəsi Edvard Karvardinin imzası ilə diploma layiq görülüb.***

Azərbaycan Respublikasının xalq artisti,bəstəkar Tofiq Quliyevin 2018-ci ildə 100 illik yubileyinə həsr edilmiş konsert tədbirində fəal iştirakına görə Azərbaycan Respulikası Mədəniyyət və Turizm Nazirliyinin diplomunu qazanıb.

Heydər Əliyev fondunun vitse prezidenti Leyla xanım Əliyevanın dəvəti ilə iki tədbirdə iştirak edib və orada uğurlu çıxışı alqışlarla qarşılanıb. 2019-cu ilin may ayında Milli Konservatoriyada keçirilən"Yüksəl, ey Azərbaycan!" adlı tədbirdə məktəbin xor kollektivi ilə birlikdə solist olaraq məşhur "Azərbaycan" mahnısını ifa edib.

Ötən il çap olunan "Yazdım ki izim qalsın" Azərbaycanın yeni istedadları kitabında onun haqqında məqalə dərc olunmuş kitabın üz qabığında şəkli yer almışdır.

13 oktyabr 2019-cu ildə Moskvada Dövlət Kreml Sarayının səhnəsində X Beynəlxalq xeyriyyə festivalında ("Belaya Trost") Radion Qazmanovla birlikdə "Mayak" mahnısını ifa edib və böyük alqışlarla qarşılanıb.

***Azərbaycan Respublikası Dənclər və İdman Nazirliyinin xətti ilə 4 dekabr 2019-cu ildə qaçqın və məcburi köçkün gənclər arasında M.Moqomayev adına Filarmoniyada keçirilən V Respublika Yaradıcılıq Festivalı müsabiqəsində italyan bəstəkarı Cakomo Puççininin "Nessun dorma" ariyasını uğurla ifa edib və nominasiyada fəxri II yerə layiq görülüb.***

Azərbaycan televiziyası mədəniyyət kanalının yeni layihəsi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə 2019-cu 17-24 dekabrda Azərbaycan vokalçıları festivalında Fikrət Əmirovun "Sevil" operasındakı "Balaş"ın ariyasını uğurla ifa etmişdir.

**Səməd hələ çox gəncdir. Biz ümid edirik ki, yaxın gələcəkdə belə bir isredadlı həmyerlimizin səsini dünyanın hər yerindən, eləcə də okeanın o tayından da eşidəcəyik: "Çıxış edir azərbaycanlı vocalist Səməd Novruzov!"**

**Faiq Şükürbəyli,**
**AJB və AYB-nin üzvü**

# BMT qətnamələri əsasında Azərbaycanla sülh imzalayın! - Korotçenko ermənilərə cavab verir

**BMT qətnamələri əsasında Azərbaycanla sülh razılaşması imzalayın!**

Trend-in məlumatına görə, bu barədə rusiyalı hərbi ekspert, nüfuzlu "Voennoye Obozreniye" jurnalının baş redaktoru İqor Korotçenko onun sosial şəbəkələrdəki hesablarına hücum erməni istifadəçilərə cavabında deyib.

Rusiyalı ekspert erməni diaspor rəhbərlərinin övladlarından hansının Qarabağ cəbhəsində vuruşması ilə bağlı informasiya təqdim olunması xahişinə ermənilərin təhqir və söyüşlərlə cavab verdiyini bildirib: "Vəziyyət eynidir: Qarabağda özləri döyüşməyə getmək istəmirlər, ancaq Rusiyanı Qarabağda onlar üçün döyüşməyə çağırırlar. Əgər Ermənistan 90-cı illərdə Azərbaycan ərazisinin 20 faizini işğal etmiş suveren və müstəqil bir ölkədirsə, o zaman öz gücünüzlə döyüşün və bu əraziləri qoruyun (Paşinyan demişdi axı, Qarabağ Ermənistandır). Əgər bu əraziləri saxlaya bilmirsinizsə, onda BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağla bağlı məlum dörd qətnaməsinin şərtləri əsasında Azərbaycanla sülh imzalayın...

Uğursuzluqlarınızda Rusiya günahkar deyil - siz özünüz günahkarsınız. Qarabağ cəbhəsindəki səngərlərdə oturmaq əvəzinə "Facebook"dasınız - seçiminiz budur. Bu seçimi özünüz etdiniz. Serj Sarqsyanın dövründə dövlətdə korrupsiya və xəzinə oğurluğu, Yerevanın mərkəzində Hitlerlə əlbir olan Qaregin Njdeyə abidə, MDB məkanında ən böyük ABŞ səfirliyi, "rəngli inqilab", Paşinyan və sorosçuları, saysız-hesabsız ABŞ qeyri-kommersiya təşkilatları, KTMT-yə arxa çevirmək (Xaçaturov işi), Rusiya telekanallarının bağlanması, Rusiya biznesinin təqib olunması, Rusiyayönümlü siyasətçilərin və Konstitusiya Məhkəməsinin təmizlənməsi - bunları siz özünüz, hamısını özünüz etdiniz".

**İstəklimiz Aqil bəy!**
**Qələbələrimiz mübarək!**
**Agdama - evimizə gedək, Şuşaya qalxaq!**
**İnşallah! Amin!**

**Bİr vaxtlar (1983-cü ildə) Xudafərin körpüsünə şer yazmışam, əgər bəyənsəniz, dogma "Ədalət" qəzetimizdə həmən şeir parçalarının çapına razılıq verməyinizi Sizdən xahiş edirəm.**

**Hörmətlə,**

**Ramiz MƏMMƏDZADƏ,**
**Şüvəlan, 3 noyabr 2020-ci il,**
**Vətən müharibəsi günləri.**

## *XUDAFƏRİN DUYĞULARI*

*** Həsrət**
**nə yaman olarmış?!**
**Körpü də göyərib**
**çəmən olarmış...**
**Lalə od tutub**
**oda bax!**
**Nizə kimi**



**göy ota bax!**
**O sahildə yəhəri yox,**
**Nalı tökülmüş ata bax...**
**Çəmən görmədim heç belə,**
**Gül tökərmiş kərpic belə...**
**İgid, dəryazın hardadır?**
**Bu çəməni gəl, biç belə!**
**Ayrılıq**
**nə yaman olarmış?!**
**Həsrət də göyərib**
**çəmən olarmış,**
**Allah, Allah?!..**

***

*** Gilizləri boşalmış**
**Qızıl bir patrondaşdır,**
**Atılıb Araz üstə**
**Xudafərin!**
**Yanar göz görə - görə,**
**Yanar suda köz üstə**
**Xudafərin!**
**Vaxtdır, qardaş**
**qanadlan!**
**Bir yaraqlan,**
**bir atlan!**
**Gəl, bərkit yəhərini!**
**Gəl, qaldır**
**qurşağına**
**Dola Xudafərini!**
**Şimşək ol!**
**Göyləri yar!**
**Qartal ol!**
**Qon daşlara!**
**Əgər güllən qurtarsa,**
**Doğra barmaqlarımı**
**Doldur patrondaşlara!!!**

## *Tarixi binanın bərpasına başlanılıb*

***Ötən gün Bakı şəhəri Ələşrəf Əlizadə küçəsi ilə Hacı Zeynalabdin Tağıyev küçələrinin kəsişməsində yerləşən tarixi binanın fasadında aparılmış qanunsuz rəngləmə işləri ilə bağlı Bakı Şəhər İcra Hakimiyyəti və Mədəniyyət Nazirliyinin əməkdaşları tərəfindən operativ tədbirlər həyata keçirilib. Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, hazırda mütəxəssislər tərəfindən tarixi binanın bərpası üçün onun fasadında təmir-restavrasiya işlərinə başlanılıb.***

***Görülən tədbirlər nəticəsində binadakı obyektin icarədarı və sahibkara qarşı İnzibati Xətalar Məcəlləsində müəyyən edilmiş maksimum məbləğdə cərimə tətbiq edilərək ciddi xəbərdar olunub, ərazi nəzarətə götürülüb.***

***Qərara alınıb ki, paytaxtda yerləşən tarixi-mədəniyyət abidələrinin vəziyyətinin öyrənilməsi məqsədilə Bakı Şəhər İcra Hakimiyyəti və Mədəniyyət Nazirliyinin qurumları tərəfindən birgə yoxlamalar keçirilsin.***



Fidan Abdurəhmanova
filologiya üzrə fəlsəfə doktoru, dosent

# BİR ƏSRİN YADDAŞINDA DANIŞAN BAKI

*Azərbaycan radiosu 1926-cı ilin həzin bir payız səhərində noyabr ayının 6-da bir saatlıq efirlə Bakının mərkəzi küçələrində "Danışır-Bakı" adı ilə ilk dəfə hər kəsə səslənmişdi. Dilinin bütün qanunauyğunluqlarını iyirmi dörd saat ehtiva edən Azərbaycan radiosu ötən əsrin əvvəllərindən bu günə qədər hər bir ailənin sevimli qonağıdır. Günün istənilən zaman dilimində tariximizin bütün dövrlərini yaşadan bu radio tarixilik və müasirlik dalğasında mənəvi dəyərlərimizi qoruyan ənənələri yaşatmaqda davam edən yeganə radiodur!*

*Azərbaycanın ucqar kənd və rayonlarında ilk dəfə 1933-cü ildə, Qafqazda, Qara dənizin şərq sahillərində isə 1936-cı ildə eşidilmişdi.1941-ci ildə II Dünya müharibəsinin başladığı ilk gecədən Azərbaycan radiosunun işçiləri zirzəmidən səslərini və sözlərini silaha çevirərək - mikrafonla faşizmlə qarşı mübarizə aparmışlar.*

*Lakin, acı təəssüflə deyə bilərik ki, müstəqilliyimizi qazandığımız ilk günlərdən erməni faşizminin qurbanı olan - Şuşa, Laçın, Kəlbəcər, Xankəndi, Füzuli, Ağdam, Qubadlı, Cəbrayıl və Zəngilanın işğal tarixlərini də söyləmək məcburiyyətində qaldı Azərbaycan radiosu...*

*Vətənin haqsızlıqlara uğradığı zamanlarda "Haqq incələr, üzülməz" deyib yola davam edən Azərbaycan radiosu xalqının bu gününün və sabahının taleyinə böyük ümidlər bəsləyərək, dinləyicilərini daima ruhdan düşməməyə və ilahi ədalətə inanaraq, döyüş meydanına çağırırdı.*

*Bu illər ərzində Azərbaycan radiosu hər gün Qarabağa yaxşı bələd olmuş ziyalılarımızı, tədqiqatçılarımızı, qazilərimizi və şəhid ailələrini verilişlərə dəvət edərək, acılı-şirinli xatirələrini, tarixi həqiqətləri və abidələrimizi bütün Azərbaycanla birlikdə yenidən xatırlayırdılar.*

*Vətən imandandır! - deyərək, vicdanla xidmət edən Azərbaycan radiosu müsəlləh əsgər kimi mübariz, düşündürücü vətənpərvər verilişləri ilə nə Vətənin tarixini araşdıran alim tədqiqatçısını, nə də vətənin keşiyində duran əsgərini unudur. Digər radiolardan fərqli olaraq, gün ərzində torpağımızın hər bir qarışının etimologiyasını, tarixini, coğrafiyasını, araşdıraraq, dinləyicilərinin ixtiyarına verir. İşğal olunmuş torpaqlarımızın ərazi bütövlüyündən, milli mənəvi sərvətlərindən, düşmən tərəfindən dağıdılmış məhv ediləcək, tarixdən silmək istədikləri abidələrindən söz açan"Yaddaş səhifələri" yaddaşları qoruyur . "Qum saatı"ı isə çox vaxt üç nöqtə ilə bitir. Burada sonsuzluqdan, öz sənətləri ilə həyatda iz qoymuş, məktəb yaratmış insanların taleyüklü və eyni zamanda ümiddolu həyatları xatırlanır ki, bizi də xatırlasınlar..."Açıq-aşkar", "Xudafərin", "Sözün düzü", "Baxış bucağı", "Dünya", "Pillə", "Yol", "Yuva", "Vaxt" kimi verilişləri isə vətənpərlik ruhunda hazırlanmış tarixin sözüdür.*

*Vətən müharibəsi günlərində xüsusilə oktyabr ayında Azərbaycanda baş verən Gəncə, Bərdə hadisələrində dinc əhaliyə qarşı işlədilməsi beynəlxalq müstəvidə qadağan olunmuş raket və bombaların nəticəsində erməni terrorçularınıntörətdiyi qətliyamları radio ilə bütün dünyaya yaydı Azərbaycan radiosu!*

*Vətən müharibəsi başlandığı ilk gündənmənəvi dünyamızın səs xəzinəsi olan Azərbaycan Radiosu xalqına sədaqətlə xidmət etməkdədir. Bu gün Azərbaycan radiodalğalarında işğal olunmuş torpaqlarımızın ürəkağrısı ilə ildönümləri deyil, işğaldan azad olunan rayonların, kəndlərin adları böyük qürur və fərəh hissi ilə səsləndirilir.*

*İnsan - dəyərləri mühafizəkarcasına qoruyan sadiq bir həmdəmə həmişə ehdiyac duyur. Düşünürəm ki, Azərbaycan radiosu yaşından və sənətindən asılı olmayaraq hər bir azərbaycanlının sədaqətli keşmişi, böyük ümidlərdən xəbər verən gələcəyidir. Azərbaycan xalqı yaşadıqca, Azərbaycan Radiosu da xalqını yaşadan tarixi hadisələri və adət ənənələri hifz edən səlist dil - nitq mədəniyyəti ilə var olacaqdır.*

*Bu radionun dinləyiciləri Vətənin taleyinə əsla laqeyd qala bilməz!*



Bəhram Fərmanzadə

## Vətən

*Arada ayrılıq, iki yüz ildi,*
*Qardaşın-qardaşdan əli üzüldü.*
*Hicran göz yaşına dönüb süzüldü,*
*İradə, mətanət dözümsən, Vətən!*

*Sərhəd məftilindən tikandı yaxan*
*Sinəmdə qıvrılıb Arazsan axan.*
*Bu taydan o taya həsrətlə baxan,*
*Vüsalın gözləyən gözümsən,Vətən!*

*Ömür tək əriyən yolumda şamsan,*
*Muraza can atan arzusan, kamsan,*
*Nağıllı gecəsən, qərib axşamsan,*
*Mən sənin, sən mənim özümsən,Vətən!*

## Türk övladının şərqisi

*Dərd içimdə burum-burum eşildi,*
*Sinəm yandı, bağrım başı deşildi.*
*Torpağına qan tökülür beş ildi,*
*Silahını yerə qoyma ayıq ol*
*Türk övladı döyüşlərdə sayıq ol!*

*Düşmənimiz hiyləgərdi, yağıdı,*
*Şuşa, Laçın sinəmizin dağıdı*
*Qalx ayağa indi qeyrət çağıdı,*
*Silahını yerə qoyma ayıq ol*
*Türk övladı döyüşlərdə sayıq ol!*

*Vətənimin bar-bəhrəli düzü var,*
*Torpağımda xain, iblis gözü var.*
*Erməninin min sifəti, üzü var,*
*Silahını yerə qoyma ayıq ol*
*Türk övladı döyüşlərdə sayıq ol!*

*Qara geydim qara Yanvar günündə,*
*Ərşə çatdı qardaş səsin, ünündə,*
*Borcumuz çox hələ Vətən önündə,*
*Silahını yerə qoyma ayıq ol*
*Türk övladı döyüşlərdə sayıq ol!*

*Dəryalarda üzən tənha gəmi var,*
*Bu dünyanın həm sevinci, qəmi var,*
*Türkdən başqa türkün özgə kimi var,*
*Silahını yerə qoyma ayıq ol*
*Türk övladı döyüşlərdə sayıq ol!*

*Türk övladı künc bucağa qısılmaz,*
*Türk əsgəri ayağından asılmaz,*
*Türk Ordusu zəfər çalar, basılmaz,*
*Silahını yerə qoyma ayıq ol*
*Türk övladı döyüşlərdə sayıq ol!*

## Azərbaycan əsgəri!

*Göstəribdi qeyrətin*
*Yollar keçibdir çətin,*
*Olub mübariz,mətin,*
*Dayağıdı millətin.*
*Azərbaycan əsgəri!*

*El yolunda qanımı*
*Axıdar Həzi kimi.*
*Qurban verər canını*
*Poladın özü kimi*
*Azərbaycan əsgəri!*

*Qələbəyə qayıdar*
*Hər döyüşdən, səfərdən,*
*Hörər şöhrət çələngi*
*Hər uğurlu zəfərdən*
*Azərbaycan əsgəri!*

*Uludan olub ulu,*
*Zəfər qələbə yolu.*
*Hər günü hünər dolu.*
*Döyüşdə qoç Koroğlu*
*Azərbaycan əsgəri!*

*İlhamdan ilham alıb,*
*Qurana əl basacaq.*
*Üç rəngli bayrağımı*
*Şuşada asacaq*
*Azərbaycan əsgəri!*

## Qələbə himnini Şuşada çaldır

*Vətənin bir qarış*
*Torpağı paysa,*
*Çadırda yatanlar,*
*Ciyər-paramdı.*
*Sənin yaşadığın*
*Büllur saraysa,*
*Udduğun hava da*
*sənə haramdı.*

*Təpər ürəyində,*
*Qüvvət qolunda,*
*Sönmüş ocaq üçün*
*Kötük tək yarıl.*
*Bu torpaq uğrunda,*
*Vətən yolunda*
*Gedən döyüşlərdə*
*Silaha sarıl.*

*Bu torpaq uğrunda*
*Canından keçən,*
*Dayan sırasında*
*Mübarizlərin.*
*Öpüb bayrağımı,*
*Öpüb and içən*
*Qoru Şəhidlərin*
*Ayaq izlərin.*

*Qartal tək qanad çal,*
*Zirvə başında.*
*Vətənin üç rəngli*
*Bayrağın qaldır*
*Saxla əmanət tək*
*Qan yaddaşında,*
*Qələbə himnini*
*Şuşada çaldır!*

## Çıxacaq ağ günə Azərbaycanım!

*Qoyduğu bünövrə, hər təməliylə,*
*Xeyirxah işiylə, düz əməliylə,*
*Şeytan fitnəsiylə, düşmən əliylə,*
*Düşməsin düyünə Azərbaycanım!*

*Millətim çatdıqca arzuya, kama,*
*Könül Pərvanətək alışar şama.*
*Rəssam vəcdə gələr, şair ilhama*
*Haqqı var öyünə Azərbaycanım!*

*Qaytarıb yurduna, elin, obasın,*
*Dərib Kəlbəcərdən çiçək topasın,*
*Qələbə günündə bayram libasın,*
*Şuşada geyinə Azərbaycanım!*

*Şoran torpaqlarda bağlar salacaq,*
*Millətim qələbə, zəfər çalacaq,*
*Baxıb İlhamına ilham alacaq,*
*Çıxacaq ağ günə Azərbaycanım!*



Mahmud QACAR

## QƏLƏMİNƏ SIĞINIB

*İstedadlı qələm sahibi Faiq Qismətoğlunu yaxın vaxtlarda layiq görüldüyü "Əməkdar jurnalist" fəxri adı münasibətiylə təbrik edərkən keçirdiyim duyğular*

**... Qəmli Arazı üçün,**
**Açdığı yazı üçün...**
**Haqqın bərpası üçün**
**Qələminə sığınıb.**

**Vətənçün candan keçən**
**Çingizlər yolun seçən,**
**Ustad əldən su içən**
**Qələminə sığınıb.**

**Can üçün can haraylı,**
**Düyün açan haraylı -**
**Şuşa, Laçın haraylı**
**Qələminə sığınıb.**

**"Ərgünəş"ə ucalan,**
**Şimşək kimi saçılan;**
**Bəhmənlidən güc alan**
**Qələminə sığınıb.**

**Sinə gərib çətinə,**
**Sözü bütöv mətinə -**
**"Ədalət" qəzetinə,**
**Qələminə sığınıb.**

**Köksündə oda layiq,**
**Fəxr edən Ata - layiq...**
**Aldığı ada layiq**
**Qələminə sığınıb.**

**Sirrin açar-güvənən,**
**Öpüb qucar-güvənən;**
**Mahmud Qacar güvənən**
**Qələminə sığınıb.**

## İRƏLİ!

*Torpaqlarımızın azadlığı uğrunda apardığımız indiki Böyük Vətən müharibəsində, Qarabağ uğrunda döyüşlərdə əfsanəvi hünəriylə dünyanı mat qoyaraq yeni tarix yazan qüdrətli Milli Ordumuzun igid zabit və əsgərlərinə*

**Müqəddəs əmanət-torpaq naminə,**
**Qoxladığın çiçək, yarpaq naminə;**
**Bu bayraq, bu şərəf, bu haqq naminə**
**Göydədir ananın odur bir əli --**
**İrəli, gözünə dönüm, irəli!**

**Yolunu hər əsir, girov gözləyir,**
**Ərgünəş, Dəlidağ, Murov gözləyir;**
**Qanı sənən halal bir "ov" gözləyir**
**Üzü sərt qayaya, daşa dirəli -**
**İrəli, gözünə dönüm, irəli!**

**Yağıya əlinin suyunu göstər,**
**Qazdığı o dərin quyunu göstər;**
**Ata-babasının "toyunu" göstər**
**Əllərin yeni bir Cavanşir əli -**
**İrəli, gözünə dönüm, irəli!**

**Döyüşlərdə cəngavər tək boy at sən,**
**Haqq səsinlə yeri-göyü oyat sən;**
**Ürəyini silahınla ovut sən**
**İncik bağça-bağlı, küskün dərəli -**
**İrəli, gözünə dönüm, irəli!**

**Daim ürəyində yurd közü olsun,**
**Gözlərin səngərdə qurd gözü olsun;**
**Köməyin Tanrının qoy özü olsun**
**Qeyrətlə, silahla dərdi çarəli -**
**İrəli, gözünə dönüm, irəli!**

**Qədəmin kövrəltsin Şuşa qalasın,**
**Qələbə tonqalın qoşa qalasın!**
**Hünərini görüb qurdun ulasın**
**Çoxdan gözləyirik dəli nərəni -**
**İrəli, gözünə dönüm, irəli!**
**Aslanım, ruh cana qovuşan andır,**
**Qarabağ anamız Azərbaycandır!**
**Ona kəc baxanı kül elə, yandır**
**Əmr edir O adı, amalı Ali -**
**İrəli, gözünə dönüm, irəli!**

# Elşən Rüstəmov: "Ermənilər hiyləgərdirlər"

**”Xalqımızın ruh yüksəkliyi nə qədərdirsə, mənim də ruh yüksəkliyim bir o qədərdir. Bu cəsarət simvoludur, bu özümüzə inamdır, ləyaqəti müdafiə deməkdir. Bütün bu keyfiyyətlərə görə bu müharibə lazım idi. İşğal olunmuş torpaqlarımız bu müharibədən sonra Allahın izni ilə bizim olacaq. İnanıram ki, biz qələbə çalacağıq. Bir insan kimi, qələbəni gözləyirəm. Təbii ki, şəhidlərimiz olur. Allah onlara rəhmət eləsin.**

Bax biz hazırda telefonla rahat danışırıq. Siz açıqlama alırsınız, mən açıqlama verirəm müharibə ilə bağlı. Bizim buradakı rahatlığımız cəbhədəki igidlərimizə görədir. Müharibənin əsas qəhrəmanları oradadır, bizim üçün vuruşurlar, gələcək nəsil üçün vuruşurlar ki, bu müharibə onların vaxtına qalmasın. Həmin igidlər canlarından belə keçirlər. Onlar əsl qəhrəmanlardır.

Küçədə əsgər görəndə sanki doğmamı görürəm. İstəyirəm, ona yaxınlaşım, istəyirəm, deyim ki, necə kömək edə bilərəm? Bu təkcə məndə olan hiss deyil, Azərbaycan xalqında bu hisslər var. Görürük, hərə bir yolla əsgərlərimizə kömək etmək istəyir. Xalqımızda böyük ruh yüksəkliyi var".

Bu sözləri Adalet.az saytına açıqlamasında Əməkdar artist Elşən Rüstəmov deyib:

Erməni vandalizmi barəsində biz həm oxumuşuq, həm də ki, gözlərimizlə görmüşük. Erməni xalqının düşüncəsi yoxdur.



Əgər düşüncəsi olsa, heç döyüşməz, müharibəni dayandırar və itkilər verməz. Mən bu müharibədə erməni millətinin ağılsız olmasının bir daha şahidi oldum. Bunu da əlavə edim, ermənilər çox hiyləgərdirlər. Çox namərd insanlardır. Təəssüflər olsun ki, onlarla qonşuyuq. Təəssüflər olsun ki, qonşumuz namərd qonşudur, hiyləgər qonşudur, xislətsiz qonşudur. İnşaAllah müharibə bitəcək, qələbə də qazanacağıq.

Ermənilər çox yalançı millətdir. Həm düşüncələrinə, həm hərəkətlərinə, həm münasibətlərinə baxanda adam söz belə tapa bilmir ki, onlara nə desin. Belə ləyaqətsiz xalqmı olar, toplummu olar?

Bu gün Azərbaycan oğulları tarix yazır. Allah onların yar və yardımçı olsun. Əsgərlərimiz sağ-salamat valideynlərinin yanına qayıtsın. Heç bir atanın, heç bir ananın gözü yolda qalmasın. Allah Xalqımızı, Ordumuzu, Ali Baş Komandanımızı qorusun".

**Rövşən Tahir**

## *İlahə Fəda: «Laçın qəlbimin yaralı bir yeridir»*



**”90-cı illərlə bağlı onu xatırlayıram ki, neçə-neçə igidlərimiz şəhid oldu. Elə bizim kəndimiz 12 şəhid verdi. Həmin illərdə doğma dayımoğlu şəhid oldu. 2 sinif yoldaşım o vaxt itkin düşdü ki, hələ də onlardan xəbər yoxdur. 30 ildir ki, şəhidlərin qanları yerdə qalmışdı, amma indi onların qisası alınır”.**

Bu sözləri Adalet.az saytına açıqlamasında müğənni İlahə Fəda söyləyib:

”Keçmişi yada salmaq mənim üçün ağırdır. Laçının işğal altında olduğunu düşünəndə kövrəlirəm. Vətən həsrəti başqa həsrətlər kimi deyil. Bir insan əzizini itirər, onunla barışar, amma Vətən həsrəti ilə barışmaq olmur. Bu tamam başqa bir yanğıdır. İnsanın yaşının üstünə yaş gəldikcə bu daha da artır. Laçın qəlbimin yaralı bir yeridir. O yara ki, hələ də sağalmayıb. İnşaAllah ki, tezliklə Ordumuz Laçını da azad edəcək və mənim yaram sağalacaq.

Biz insanlar əlimizdən nə gəlirsə, əsirgəməməliyik. Bunu deməyəcəkdim, amma duyğulandım deyə söyləyim. Bu müharibədə əmimoğlu çox ağır yaralandı, onu rayonların birində xəstəxanaya yerləşdirdilər. Mənim ürəyim partlayırdı, çünki rayona da getmək olmur. Həmin rayonda dostuma zəng etdim, onun otağını çiçəklərlə bəzətdirdi. Bilirsiniz, necə? Belə şeylər etmək lazımdır.

Hamımız Ordumuzun yanındayıq, Ali Baş Komandanın ətrafında sıx möhkəmlənmişik. Bu müharibə bizi daha da birləşdirdi.

Allah Ordumuzu qorusun, Ali Baş Komandanımızı qorusun. Düzdür, şəhidlərimiz də olur. Allah onlara rəhmət eləsin. Mən şəhid analarının qarşısında baş əyirəm. Torpaq su ilə qarışanda palçıq olur, amma qanla qarışanda Vətən olur. Qarabağda torpağa qanımız qarışdığı üçün deyirik ki, Qarabağ Vətəndir, Qarabağ Azərbaycandır”.

**Rövşən**

# Tolik: “Ruhi əsgərlərin dəsmallarına qədər aldı”

**"Hər şey pulla ölçülmür. İstəmirəm, dostlarımdan danışım, deyəcəklər, tərifləyir. Yazırlar ki, Ruhi niyə kömək eləmir? Gördünüz, 60 əsgərimizin gündəlik çimməsini təmin edəcək hamam düzətdirdi. Səbr edin. Ruhi əsgərlərin şampununa, dəsmallarına qədər aldı. 50 kilo, 100 kilo çərəz apardı. Ruhi nələr etmədi ki?**



Müğənnilərə heç nə demirəm daha. Onları Allahın ixtiyarına vermişəm. Özləri bilsin, Allahları bilsin. Olan kömək edir, olmayan etmir. Bu gün çox sevinərəm ki, bir müğənnimiz otursun evdə, video çəksin ki, mən öz əllərimlə 200 paxlava, qoğal bişirib əsgərlərə göndərəcəm. Necə sevinərəm?! Daha gedib dükandan almasınlar. Evlərində bişirsinlər. Hamısı rayon qızlarıdır. Qoy 300 manat xərcləri çıxsın. Nə xərc çəkəcəklər? 500 ədəd şəkərbura bişirsələr, heç 200-300 manat xərcləri çıxmayacaq. Bunu ürəkdən etsinlər, içdən etsinlər"

Bu sözləri "instagram" hesabında paylaşdığı videoda prodüsser Tarix Əliyev müğənnilərə xitabən deyib: "Vallah, sən desən ki, üzüyümü satıram 100 manata və bu pula əsgərlərimizə şəkərbura, paxlava bişirib göndərirəm, səni xalqım öpüb gözünün üstünə qoyar. Təbii ki, səmimi etsən bunu. 500 manatlıq qoğal, şəkərbura bişirsən, bunu ürəkdən etsən, xalq səni sevər.

Daha reklamla yox, götür qızılı, get video çək ki, mən bu qızılı əsgərlər üçün satıram. Yox, qəşəng alınmadı, prodüsserdə başqa-başqa rakurslardan çəksin, belə demirəm. Müğənnisən, mən səni gözəl anlayıram, amma sənə ideya verirəm.

Çağır dostlarını evində şirniyyatlar bişir. Arvadsınız da hamınız, eliyə bilirsiniz. Şəkərburaların üstünə Qarabağ, Laçın, Şuşa, Kəlbəcər yazın, deyin ki, əsgərlər üçün etmişik. Buna görə camaat sizə çox sağol deyəcək. Bunu eləyin, videosunu mənə göndərin, mən paylaşım. Görün nə gözəl ideyadır. Şəkərburaların üstünə əsgər adları yazın, bişirib göndərin onlara. Əsgərlədə adlarını axtarsınlar, sevinsinlər. Bu ideyalar məndən gəlir sizə. Edin bunu, xalqın sevgisini qazanın. Bunu etsəniz, əsgərlər necə sevinərlər?! Nolar ki, əsgərlərimiz üçün isti çörəklər bişirib göndərəsiniz. Lazım deyil ki, onlara geyim göndərəsiniz. Əsgərlər üçün bir ana əlləri ilə bişən şirniyyat dünya olar. Axı bunu ki, bacarırsınız. Niyə etmirsiniz axı? İnanın ki, bu əsgərlərimizə necə xoş olacaq".

**Rövşən Tahir**

## *Türk futbolçu Avroliqanın tarixinə düşdü*




**Avropa Liqasının qrup mərhələsinin 3-cü turunda ”Milan”la səfər oyununda (3:0) het-trik edən ”Lill”in futbolçusu Yusuf Yazıcı turnirin tarixinə düşüb.**

Qol.az xəbər verir ki, ”San-Siro”da rəqib qapısından 3 top keçirən türkiyəli yarımmüdafiəçi Avropa Liqasında bir mövsümdə iki səfər oyununda het-trik edən ilk futbolçu olub. Türkiyə millisinin üzvü qrup mərhələsinin 1-ci turunda ”Sparta” (Çexiya) ilə görüşdə də (4:1) het-trik etmişdi.

Qeyd edək ki, 2019-cu ildən ”Lill”də çıxış edən hücumameyilli yarımmüdafiəçi bu mövsüm ümumilikdə 11 oyuna 7 qol vurub.

# «Üfürəndə yıxılanlardan danışın...»

**"Davamlı olaraq bizim haqqımızda danışırsız. Niyə ancaq biz?"**

Qol.az xəbər verir ki, bu sözləri "Tottenhem"in baş məşqçisi Joze Mourinyo komandanın hücumçusu Harri Keyni simulyasiyaya görə tənqid edənlərə cavabında deyib.

Portuqaliyalı mütəxəssis "Mirror"a açıqlamasında İngiltərə millisinin üzvünü müdafiə edib, bildirib ki, ona qarşı haqsız fikirlər səsləndirilir: "Brayton"la oyunda Harri Keyn topu saxladı, Adam Lallana ona kobud şəkildə müdaxilə etdi.



Nəyə görə Keyn "ağıllıca" özünü yerə atdı deyirsiz? Düzdür, Keyn ağıllıdır, amma ona edilən cərimə idi. Mən cərimə meydançasından kənarda olduğunu düşünürdüm, ancaq hakimlər VAR-a baxıb, penalti təyin etdi. İynələyici sözlərlə niyə Keyni təzyiq altında saxlayırsız?

"Liverpul"dan, "Mançester Siti"dən danışın! Premyer Liqa oyunlarında penalti qazanmaq üçün özünü "ağıllıca" yerə atanlardan danışın, üfürəndə yerə yıxılanlardan danışın, Keyndən danışmayın".

Samux rayon Bağmanlar kənd sakini İmanov Nəsir Həsən oğlunun adına verilmiş JN-0051 kod: 50702038 saylı torpağın mülkiyyətə verilməsinə dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS
Baş redaktor:
İradə TUNCAY

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N:
38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 25
Çapa imzalanmışdır:
06.11.2020